HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 49 (789) ■ 16 dekabr 2015 | www.vergiler.az | Qiyməti: 40 qəp.

## Ümummilli lider Heydər Əliyevin anım günü



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 12 il keçir. Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada, Heydər Əliyevin ömür yolu Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.

Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

«Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur». Bu sözləri deyən ulu öndər istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdriklik və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı.

Ulu öndərin Azərbaycana hakimiyyətə qayıdışı daha möhtəşəm oldu. Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi...

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın dövlət himni səslənib.

Dövlətimizin başçısı İlham Əliyev və oğlu Heydər Əliyev ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

## Azərbaycan Prezidentinin Çin Xalq Respublikasına səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Çin Xalq Respublikasına dövlət səfərinə gəlib. Sian şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısını şəhərin rəsmi şəxsləri qarşılayıblar.*

Azərbaycan Prezidenti Sian şəhərindən paytaxt Pekinə yola düşüb. Dövlətimizin başçısı dekabrın 10-da Pekində Paytaxt Muzeyi və «Huawei» şirkətinin Pekindəki Sərgi Mərkəzi ilə tanış olub, sonra Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Can Decian ilə görüşüb. Can Decian Azərbaycan Prezidentinin Çinə dövlət səfərinə böyük əhəmiyyət verildiyini və bu səfərin gələcək əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verəcəyini deyib, Azərbaycanın Cənubi Qafqazda Çinin mühüm tərəfdaşı olduğunu vurğulayıb. Çinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllinə dəstək verdiyini bildirib, ölkəmizin «Vahid Çin» məsələsində göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Prezident İlham Əliyev bu səfərin Azərbaycan-Çin əməkdaşlığının gələcək inkişafında mühüm mərhələ olacağını, ikitərəfli əməkdaşlığın gələcək inkişafına təkan verəcəyinə əminliyini ifadə edib. Ölkələrimizin siyasi və iqtisadi sahələrdə uğurla əməkdaşlıq etdiyini deyən dövlətimizin başçısı qədim İpək Yolu üzrə iqtisadi zolağın yaradılması təşəbbüsünün Azərbaycan tərəfindən dəstəkləndiyini, ölkəmizin bu layihədə mühüm tranzit iştirakçıya çevrilməsinin əhəmiyyətini vurğulayıb. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunub, Çinin bu problemin ölkəmizin suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllinə verdiyi dəstəyə görə minnətdarlığını bildirib, Ermənistanın münaqişənin həlli ilə bağlı BMT-nin qəbul etdiyi qərar və qətnamələri yerinə yetirmədiyini diqqətə çatdırıb. Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq terrorizm, təcavüzkar separatizm kimi təhlükələrə qarşı eyni mövqedən çıxış etdiyini bildirib.

Sonra dövlətimizin başçısı Çin Xalq Respublikası Dövlət Şurasının Baş naziri Li Keçyan ilə görüşü olub. Həmin gün Azərbaycan Prezidentinin Ümumçin Xalq Nümayəndələri Yığıncağında - parlamentdə rəsmi qarşılanma mərasimi olub. Sonra dövlətimizin başçısının və Çin Xalq Respublikasının Sədri Si Cinpinin geniş tərkibdə görüşü olub.

Si Cinpin bildirib ki, Çin ilə Azərbaycan hüquq bərabərliyi, qarşılıqlı fayda və qarşılıqlı hörmət ruhunda ikitərəfli əlaqələri inkişaf etdirir, həyati əhəmiyyətli və ciddi narahatlıq doğuran məsələlərdə bir-birini qətiyyətlə dəstəkləyirlər. Siyasi sahədə qarşılıqlı etimad daim möhkəmlənir, çoxplanlı əməkdaşlıq fasiləsiz olaraq dərinləşir. Ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri üçün möhkəm təməl və geniş perspektivlər var.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə bildirib ki, bizi möhkəm münasibətlər bağlayır. Biz bir sıra sahələrdə dostlar və tərəfdaşlar kimi əməkdaşlıq edirik: «Biz əlaqələrimizi genişləndirmək, siyasi dialoqu inkişaf etdirmək, beynəlxalq təşkilatlarda fəal əməkdaşlığı bundan sonra da davam etdirmək və iqtisadi əlaqələri möhkəmlətmək istəyirik. İpək Yolu iqtisadi zolağının yaradılması barədə Sizin təşəbbüsünüzü biz Azərbaycanda çox yüksək qiymətləndiririk».

Prezident İlham Əliyev Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu və bunun ölkəmizin xarici siyasətinin prioritetlərindən birini təşkil etdiyini diqqətə çatdırıb, terrorizm, təcavüzkar separatizm, ekstremizm kimi təhlükələrlə mübarizədə ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığın önəmini qeyd edib. Dövlətimizin başçısı Çin şirkətlərinin Azərbaycanda energetika sektorunda fəaliyyət göstərdiyini, ölkəmizin informasiya-kommunikasiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. Nəqliyyat sahəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın Çin ilə Avropa arasında mühüm tranzit dəhlizi rolunu oynaması üçün yaxşı potensial var və ölkəmizdən keçən yol Çin ilə Avropa arasında ən qısa yol ola bilər. Azərbaycanda infrastrukturun yaradılması, nəqliyyat sisteminin təkmilləşdirilməsi istiqamətində çox böyük işlər görüldüyünü deyən dövlətimizin başçısı investisiya qoyuluşu sahəsində əməkdaşlığın genişləndirilməsinin, texnoparklarda Çin şirkətlərinin iştirakının mümkünlüyünü də vurğulayıb.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub. «Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin imzalayıblar.

Dekabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib. Həmin gün Azərbaycan Prezidentinə Renmin Universitetinin «Tarix üzrə fəxri professor» diplomunun təqdim edilməsi mərasimi keçirilib. Mərasimdə çıxış edən Prezident İlham Əliyev ona verilən fəxri ada görə universitetin rəhbərliyinə təşəkkürünü bildirib.

## Vergi Məcəlləsinə dəyişikliklər sahibkarların vergi yükünün azaldılmasına xidmət edir

*Azərbaycan Respublikası vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun AZƏRTAC-a eksklüziv müsahibəsi*

***- Cənab nazir, artıq 2015-ci il başa çatmaq üzrədir. Ölkə Prezidentinin Fərmanı ilə 2016-cı ilin iqtisadi inkişaf proqnozları və büdcəsi də artıq təsdiq edilib. Vergi orqanları qarşısında qoyulmuş vəzifələrin icrası ilə bağlı nə deyə bilərsiniz?***

- 2015-ci il də əvvəlki illər kimi ölkə iqtisadiyyatının uğurlu inkişafı ilə yadda qalacaq. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qeyd etdiyi kimi, həm Avropada, həm də bölgədə iqtisadi, hərbi, siyasi böhran yaşandığı bir şəraitdə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Doqquz ayda Azərbaycan iqtisadiyyatı bütövlükdə 3,8 faiz, qeyri-neft iqtisadiyyatımız isə 6 faizdən çox artıb. Əhalinin pul gəlirləri 5,8 faiz artıb, inflyasiya kifayət qədər aşağı - 3,7 faiz səviyyəsindədir. Büdcə xərclərinin məlum səbəbdən azalmasına baxmayaraq, sosial infrastrukturun yaradılmasına lazım olan qədər vəsait ayrılması bir daha göstərir ki, dövlətimizin siyasətinin mərkəzində həmişəki kimi, yenə də Azərbaycan vətəndaşı dayanır və bu gələcəkdə də belə olacaq.

Təbiidir ki, neft gəlirlərinin azalması Vergilər Nazirliyinin xətti ilə büdcə daxilolmalarına da müəyyən qədər təsir göstərib. Lakin Prezident İlham Əliyevin böyük uzaqgörənliklə qeyri-neft sektorunun inkişafı ilə bağlı vaxtında gördüyü tədbirlər nəticəsində iqtisadiyyatımızın qeyri-neft sektorunun yüksək sürətlə inkişaf etməsi bu mənfi təsirin aradan qaldırılmasına imkan verib və cari ilin ötən 11 ayı ərzində vergi daxilolmaları üzrə büdcə proqnozlarına artıqlaması ilə əməl olunub.

Vergi orqanlarında ölkə başçısının göstərişlərinə uyğun olaraq həyata keçirilən islahatlar uğurla davam etdirilir. Bu gün Vergilər Nazirliyinin fəaliyyəti əsasən elektronlaşdırılmış, ölkə vətəndaşlarına ən çox sayda elektron xidmətlər göstərən bir dövlət qurumudur.

Mütərəqqi vergi sisteminin formalaşdırılmasında biz beynəlxalq təcrübənin öyrənilməsinə, vergi inzibatçılığı sahəsində dünyada mövcud olan yeni innovativ layihələrin ölkəmizə gətirilməsi və uğurla tətbiq edilməsinə böyük önəm verir, dünyada vergi sahəsində aparıcı və nüfuzlu beynəlxalq təşkilatların hamısı ilə sıx əməkdaşlıq edirik.

*Davamı 2-ci səhifədə*

BU NÖMRƏMİZDƏ

QARŞIDA DURAN VƏZİFƏLƏR MÜZAKİRƏ OLUNUB 3
VERGİDƏN YAYINANLAR YAXALANDILAR 4
KİV NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 5
DÖVLƏTİN VERGİSİNİ HƏR KƏS TAM ŞƏKİLDƏ ÖDƏMƏLİDİR 6

# Vergi Məcəlləsinə dəyişikliklər sahibkarların vergi yükünün azaldılmasına xidmət edir

*Əvvəli 1-ci səhifədə*

Dünya Bankının beynəlxalq iqtisadiyyatın müxtəlif sahələri və biznes mühitinin əlverişliyi üzrə qiymətləndirməsini özündə əks etdirən «Doing business 2016» hesabatı, eləcə də Dünya Bankı ilə PWC şirkətinin tərtib etdiyi «Paying taxes 2016» hesabatı ölkəmizin milli vergi sistemini biznesin aparılması nöqteyi nəzərindən yüksək dəyərləndirir. Azərbaycan bu hesabatlarda «Vergilərin ödənişi» meyarı üzrə dünyanın 189 iqtisadiyyatı arasında 34-cü yerdədir. Vergi inzibatçılığı sahəsində aparılan islahatlar, eləcə də vergi yükünün digər ölkələrlə müqayisədə xeyli az olması səbəbindən Azərbaycanın vergi sistemi vergilərin ödənilməsinin asanlığına görə bir çox inkişaf etmiş ölkələrin belə, göstəricilərini qabaqlayır. Dünya Bankı ölkəmizdə biznesə başlama imkanlarını dünya ölkələri sırasında 7-ci yerdə dəyərləndirib. Bunlar çox mühüm göstəricilərdir və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın vergi sisteminin inkişaf səviyyəsinə verilən qiymətdir.

Lakin bunlar bizi qətiyyən qane etmir, çünki dövlət başçısı tərəfindən bizim qarşımızda büdcənin cari xərclərinin əsasən vergi orqanlarının və qismən də gömrük orqanlarının xətti ilə daxilolmalar hesabına formalaşdırılması kimi məsul bir vəzifə qoyulub. Cənab Prezidentin tələbi budur ki, vergi orqanları daha şəffaf və səmərəli işləməli, büdcəyə daha çox vəsait toplamalıdırlar. Bunun üçün bütün imkanlar, ehtiyatlar səfərbər olunmalı, vergi bazası genişləndirilməlidir. Sahibkarlar da ölkə başçısının vurğuladığı kimi, vergiləri verməlidirlər, dövlətin vergisini hər kəs, hər bir sahibkar tam şəkildə ödəməlidir. Bununla bərabər, sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalı, biznes mühitinin daha da yaxşılaşdırılması üçün tədbirlər görülməlidir. Biz Maliyyə Nazirliyi ilə birlikdə, Nazirlər Kabinetinin və Prezident Administrasiyasının yaxından köməyi ilə qarşımızda duran bu vəzifələrin yerinə yetirilməsi üçün lazım olan bütün tədbirləri həyata keçirməyə çalışırıq.

***- Prezident İlham Əliyevin Fərmanı ilə Vergi Məcəlləsinə dəyişiklikləri nəzərdə tutan qanunvericilik sənədləri artıq təsdiq edilib. Məcəlləyə edilmiş əsas dəyişikliklər nədən ibarətdir və bu dəyişikliklər hansı zərurətdən irəli gəlir?***

- Məlumdur ki, ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi və bu inkişafın stimullaşdırılması üçün büdcə-vergi mexanizmlərindən fəal istifadə olunur.

Ölkə başçısının vurğuladığı kimi, indi Azərbaycan iqtisadiyyatı yeni situasiyada inkişaf edir. Vergi orqanları üçün bu situasiyanın xüsusiyyətlərindən biri də odur ki, neft gəlirlərinin azalması ilə büdcəyə vergi daxilolmalarının da azalmasına baxmayaraq, büdcəmizin sosial yönümlüyünün saxlanılması, nisbətən aztəminatlı təbəqələrə, kiçik və orta sahibkarlara göstərilən dövlət dəstəyinin artırılması, ümumi biznes mühitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər büdcəyə vergi daxilolmalarının artırılmasını tələb edir. Ona görə də vergitutma bazasının genişləndirilməsi, mövcud vergi potensialından daha səmərəli şəkildə istifadə olunması üçün Vergilər Nazirliyi tərəfindən ciddi vergi-büdcə təhlilləri aparılıb, müvafiq dövlət qurumları ilə razılaşdırmaqla Vergi Məcəlləsinə və bir sıra qanunvericilik aktlarına dəyişikliklər edilməsi barədə konkret təkliflər verilib. Bu dəyişikliklər Milli Məclisdə geniş müzakirə olunaraq, 2015-ci ilin dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilib.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi yolu ilə büdcə daxilolmalarının artmasına xidmət edir. Dövlət büdcəsinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsinin təşviqi də bu gün qarşımızda duran əsas vəzifələrdəndir.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklər sırasında ilk olaraq, fiziki şəxslərin



əmək haqlarına verilən güzəştlərin əhatə dairəsinin genişləndirilməsini göstərmək istərdim. Bilirsiniz ki, dövlət başçısının apardığı sosial-iqtisadi siyasətə uyğun olaraq hər il ölkə üzrə yaşayış minimumu və əmək haqları davamlı olaraq artırılır. Vergi qanunvericiliyində buna qədər qüvvədə olan güzəştlərin tətbiqi mexanizmi elə idi ki, aylıq gəlirləri 250 manatdan az olan fiziki şəxslərin əmək haqlarının artırılması nəticə olaraq həmin şəxslərin güzəşt dairəsindən çıxmasına səbəb olurdu. Nəticə etibarilə muzdlu işçi həmin artımdan bəhrələnmirdi. Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən əsas iş yerində aylıq gəliri 2500 manatadək və illik gəliri 30.000 manatadək olan fiziki şəxslərin gəlirlərinin müvafiq olaraq ölkə üzrə yaşayış minimumunun 1 və 12 mislinədək olan hissəsinə gəlir vergisindən vergi güzəştinin tətbiqi nəzərdə tutulur və nəticə etibarilə bundan sonra işçi əməkhaqqı artımından tam bəhrələnəcəkdir.

> *Vergi inzibatçılığı sahəsində aparılan islahatlar, eləcə də vergi yükünün digər ölkələrlə müqayisədə xeyli az olması səbəbindən, Azərbaycanın vergi sistemi vergilərin ödənilməsinin asanlığına görə bir çox inkişaf etmiş ölkələrin belə, göstəricilərini qabaqlayır*

Sözügedən dəyişiklik ölkədə həyata keçirilən sosial siyasətə uyğun olaraq əhalinin gəlirlərini artırmaqla onların maddi rifahının yaxşılaşmasına müsbət təsir göstərəcək və əmək haqlarının leqallaşmasını təşviq edəcək. Bu vergi güzəştindən həm dövlət sektorunda, həm də özəl sektorda çalışan 500 mindən artıq insan faydalana biləcək.

Dəyişikliklərin mühüm bir qismi sadələşdirilmiş vergi ilə bağlıdır. Xüsusilə qeyd etmək istərdim ki, ƏDV-nin məqsədləri üçün ərizə vermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcmi 120.000 manatdan 200.000 manatadək artırılıb. Məcburi ƏDV qeydiyyatına alınmaq öhdəliyi yaradan həddin artırılması dövriyyəsi 200.000 manatadək olan şəxslərə sadələşdirilmiş vergitutma rejimində fəaliyyətlərini davam etdirməyə imkan verəcək ki, bu da vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, həmin vergi ödəyicilərinin vergi yükünün azaldılmasını təmin edəcək.

Digər mühüm məsələ, ticarət və ictimai iaşə sektorunun vergiyə cəlb edilməsindəki dəyişikliklərlə əlaqədardır. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə dövriyyəsindən asılı olmayaraq sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ verilir. Yəni, satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda belə, məhz bu iki sahədə çalışan vergi ödəyiciləri sadələşdirilmiş verginin ödəyicisi ola biləcəklər. Yalnız bu halda, yəni ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda, əldə edilən ümumi hasilatın həcmindən ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş vergi tətbiq ediləcək. Satış dövriyyəsi 200.000 manatdan aşağı olan bütün digər sahibkarlıq subyektləri, o cümlədən ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri isə yenə də əvvəlki qaydada, yəni Bakı şəhərində vergilərini 4 faiz, digər regionlarda isə 2 faiz dərəcə ilə ödəyəcəklər.

Ticarət dövriyyəsi 200.000 manatdan artıq olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməyə də bilərlər. Vergi Məcəlləsi onlara bu seçim hüququnu verir. Bu halda həmin şəxslər Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada ƏDV ödəyicisi kimi qeydiyyata alınaraq ƏDV, ilin yekunlarına əsasən mənfəət (gəlir) və əmlak vergilərini (hüquqi şəxslər üçün) dövlət büdcəsinə ödəməlidirlər.

Fürsətdən istifadə edərək, bir mühüm məsələyə toxunmaq istərdim. Son zamanlar Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı kütləvi informasiya vasitələrində bəzi yanlış şərhlərin verildiyi, ticarət və ictimai iaşə sektorunda vergi yükünün artırılması ilə bağlı müəyyən fikirlərin yer aldığı müşahidə olunur. Mən qətiyyətlə bildirirəm ki, bu tamamilə yanlış məlumatlardır və ola bilsin ki, insanları bilərəkdən çaşdırmaq məqsədi daşıyır. Sözügedən dəyişiklik vergi inzibatçılığını sadələşdirməklə yanaşı, adıçəkilən vergi ödəyicilərinin vergi yükünün əhəmiyyətli şəkildə azaldılması, eyni zamanda ticarət dövriyyələrinin şəffaflaşması və vergitutma bazasının genişlənməsi ilə nəticələnəcək.

***- Fazil müəllim, vətəndaşların marağına səbəb olan mühüm dəyişikliklərdən biri də daşınmaz əmlakın təqdim edilməsindən əldə edilən gəlirlərin vergiyə cəlb edilməsi mexanizminin yenilənməsidir. Bu sahədə aparılmış dəyişikliklər nədən ibarətdir?***

- Daşınmaz əmlakın təqdim edilməsindən əldə edilən gəlirlərin vergiyə cəlb edilməsi mexanizmi indi daha da sadələşdirilib və bu sahədə də vergi yükü əhəmiyyətli şəkildə azaldılıb.

Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan müddəalarına əsasən, mənzillərin və digər daşınmaz əmlakların təqdim edilməsindən sadə dildə desək, satılmasından əldə olunan gəlirlər təqdim edən şəxs tərəfindən vergi orqanlarına müvafiq bəyannamə təqdim olunmaqla vergiyə cəlb edilirdi. Bir çox hallarda təqdim edilən belə daşınmaz əmlakların alınmasına, tikintisinə, təmirinə çəkilən xərcləri təsdiq edən sənədlərin olmaması, bu əməliyyatlardan əldə edilən gəlirlərin vergiyə cəlb edilməsində çətinliklər və narazılıqlar yaradırdı.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə, daşınmaz əmlakın təqdim edilməsi (satılması) üzrə müqavilələri təsdiq edən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması, 1 bank günü ərzində dövlət büdcəsinə ödənilməsi və aylıq bəyannamənin vergi orqanına təqdim edilməsi nəzərdə tutulur. Nəticədə daşınmaz əmlakın təqdim olunmasından gəlir əldə edən şəxslərin vergi uçotuna alınması və onlar tərəfindən müvafiq bəyannamənin vergi orqanına təqdim edilməsi zərurəti aradan qalxır.

Bir vacib məsələni də xüsusi vurğulamaq istəyirəm ki, fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, daşınmaz əmlakın hədiyyə, maddi yardım və miras formasında Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində nəzərdə tutulan ailə üzvləri tərəfindən verilməsi, daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınması, əmlakın ər və arvad arasında verilməsi, keçmiş ər-arvad arasında boşanma prosesində verilməsi ödəmə mənbəyində vergidən azad edilir.

Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər hər kvadratmetr sahəyə görə 15 manat müvafiq əmsallar tətbiq etməklə ödəyəcəklər. Yəni, şəxslər yaşayış və qeyri-yaşayış sahələrini satdıqda və ya bağışladıqda vergi ödəməli olacaqlar.

Vergi yaşayış və qeyri-yaşayış sahəsinin ümumi sahəsindən tutulacaq və bu zaman hesablanmış məbləğə Vergi Məcəlləsində təsbit edilmiş zona əmsalları tətbiq olunacaq.

***- Tikinti sektoru ölkə iqtisadiyyatının inkişaf edən mühüm sahələrindən biridir. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnun verilməsi inşaat sektorunda çalışan vergi ödəyicilərinə nə verəcək?***

- Vergi Məcəlləsinə edilmiş dəyişikliklər tikinti sektorunun fəaliyyətinin canlandırılmasına və bu sahədə fəaliyyət göstərən vergi ödəyicilərinin vergi yükünün azaldılmasına hesablanıb. İlk növbədə, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq və yaxud bu hüquqdan imtina etməklə ƏDV-nin, mənfəət (gəlir) vergisinin, əmlak vergisinin ödəyicisi olmaq hüququ verilib.

Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan müddəalarına əsasən, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər eyni zamanda həm sadələşdirilmiş verginin, həm də ƏDV-nin ödəyiciləri hesab olunurdular. Həmin şəxslər təməl işlərinə başladıqda, tikilən binanın layihə üzrə sahəsinin hər kvadratmetri üçün 10 manat məbləğinə Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş zona əmsalları tətbiq edilməklə sadələşdirilmiş vergini hesablayır və müvafiq bəyannaməni vergi orqanlarına təqdim edirdilər. Təməl işlərinə başlanılmış binanın tikilib-tikilməməsindən asılı olmayaraq hesablanmış sadələşdirilmiş vergi bərabər hissələrlə 8 rüb ərzində büdcəyə ödənilirdi.

Bununla yanaşı, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən təqdim edilən yaşayış və qeyri-yaşayış sahələrinin hər kvadratmetri üçün 225 manat məbləğinə yenə də ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə təsdiq edilmiş əmsallar tətbiq edilməklə ƏDV tutulan minimum dövriyyə müəyyən edilərək həmin sahələrin təqdim edildiyi ayda ƏDV hesablanaraq büdcəyə ödənilirdi.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etdikləri halda, tikinti-quraşdırma işlərinə başlandığı rübdə tikilən binanın sahəsinin hər kvadratmetri üçün 45 manata Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə əmsallarını tətbiq etməklə sadələşdirilmiş vergi hesablanmalı və hesablanmış vergi bərabər hissələrlə 10 rüb ərzində dövlət büdcəsinə ödənilməlidir. Bu halda hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, fiziki şəxslər isə ƏDV-nin və gəlir vergisinin ödənilməsindən azad edilirlər.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etmədikləri halda, onlar tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilmə dəyərindən ƏDV, təqdim etmədən əldə edilən gəlirləri ilə gəlirdən çıxılan xərc arasındakı fərqdən mənfəət (gəlir) vergisi və həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə əmlak vergisi (hüquqi şəxslər üçün) dövlət büdcəsinə ödənilməlidir.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə vergitutma metodu üzrə seçim hüququnun verilməsi onlar tərəfindən sahibkarlıq fəaliyyətində maliyyə resurslarından daha səmərəli istifadə edilməsinə və tikinti sektorunun inkişafına şərait yaradacaq.

***- Məcəlləyə edilən dəyişikliklərdən biri də idman mərc oyunlarından əldə edilən uduşların ödəmə mənbəyində vergiyə cəlb edilməsi ilə bağlıdır. Çıxışlarınızın birində Azərbaycanda idman mərc oyunları bazarının illik dövriyyəsinin təqribən 300 milyon manat olduğunu qeyd etmişdiniz. Yeni qaydalar büdcədə artıma səbəb olacaqmı?***

- Müasir dünyada dövlətlər büdcələrini formalaşdıran zaman ölkənin potensialının səmərəli istifadə olunmasına çalışırlar. Bu baxımdan leqal mərc oyunları dünya təcrübəsində büdcəyə gəlir gətirən əsas sahələrdən biridir. Azərbaycanda da bütün dünyada olduğu kimi idman mərc oyunları keçirilir. Məlum olduğu kimi, idman mərc oyunlarından əldə edilən uduşlar 2013-cü ilin yanvarın 1-dən etibarən fiziki şəxslərin gəlir vergisindən azad edilib.

Qeyd olunan vergi güzəştinin tətbiqi ötən 3 il ərzində ölkədə keçirilən idman mərc oyunlarının inkişafını stimullaşdırılmasına, oyunların əhatə dairəsinin genişlənməsinə və bu sahədən əldə edilən gəlirlərin artmasına səbəb olub. İdman mərc oyunları dövlət büdcəsi üçün potensial gəlir mənbələrindən biridir və bütün bunlar həmin sahədən əldə edilən uduşların vergiyə cəlb olunmasını zəruri edir. Bu məqsədlə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə idman mərc oyunlarından əldə edilən uduşların ödəmə mənbəyində vergiyə cəlb edilməsini nəzərdə tutan müddəalar daxil edilib. Bu sahədən əldə edilən gəlirlərin vergiyə cəlb olunması qeyri-neft sektorundan büdcə daxilolmalarının artmasına səbəb olacaq.

***- Vergi Məcəlləsindəki hansı digər mühüm dəyişiklikləri qeyd edərdiniz?***

- Qeyd etdiyim kimi, ƏDV-nin məqsədləri üçün ərizə vermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcmi 120.000 manatdan 200.000 manatadək artırılıb. Bundan başqa, ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcmi 60.000 manatdan 100.000 manatadək artırılıb. Bu dəyişikliklər, ƏDV qeydiyyatında olan şəxslərə sadələşdirilmiş vergitutma metodunu tətbiq etmələrinə şərait yaradır və vergi ödəyicilərinin vergi yükünün azaldılmasını təmin edir.

Bundan başqa, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə, prioritet sahələr üzrə idxalda ƏDV-dən azadolmaların siyahısı Vergi Məcəlləsinə daxil edilib. Bu isə o deməkdir ki, həmin siyahıda dəyişiklik yalnız Milli Məclisdə müzakirə olunduqdan və cənab Prezident tərəfindən imzalandıqdan sonra mümkün olacaq.

Hüquqi şəxslərin əmlak vergisi sahəsində bəzi dəyişikliklər var. Son illər ölkəmizdə informasiya və kommunikasiya texnologiyaları sahəsində də əldə edilmiş nailiyyətlər sırasında «Azerspace» telekommunikasiya peykinin uğurla orbitə çıxarılmasının xüsusi yeri var. Dünya peyk xidmətləri bazarında yüksək rəqabət mühiti mövcuddur ki, burada «Azərkosmos» ASC kimi yeni bazar iştirakçılarına rəqabətə davamlı fəaliyyət göstərmək üçün müəyyən vaxt tələb olunur. Bu səbəbdən bir çox ölkələrdə kosmik sənaye sahəsində çalışan şirkətlərin rəqabət qabiliyyətini artırmaq üçün onlara vergi və gömrük güzəştləri tətbiq edilir. Bu addımların arasında kosmik əmlakın əmlak vergisindən azad edilməsi ilə bağlı güzəştlər xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, peyklər və digər kosmik obyektlər əmlak vergisindən azad edilib.

Yeniliklərdən biri də mədən vergisi ilə bağlıdır. Vergi Məcəlləsi qüvvəyə mindiyi tarixdən etibarən mədən vergisinin dərəcələrində dəyişikliklər edilməyib. Ölkədə aparılan məqsədyönlü iqtisadi siyasət nəticəsində tikinti və sənaye sektorunun inkişafı qeyri-filiz faydalı qazıntılar üzrə mədən vergisinin dərəcələrinə yenidən baxılmasını zəruri edirdi. Bu baxımdan qeyri-filiz faydalı qazıntılar üzrə mədən vergisinin dərəcələri optimallaşdırılıb. Bu dəyişiklik dövlət və bələdiyyə büdcələrinə daxilolmaların artmasına müsbət təsir göstərəcək. Xüsusilə bələdiyyə büdcələrinə artımlar gözlənilir. Çünki bir sıra qeyri-filiz təyinatlı mədən məhsulları bələdiyyə mülkiyyətinə aid edilib.

***- Aksiz markası ilə markalanmalı olan malların ölkə ərazisində dövriyyəsinin tənzimlənməsi ilə bağlı qəbul edilmiş qərarlar geniş rezonans doğurub. Bu dəyişikliklər hansı zərurətdən irəli gəlib? Bu barədə bir qədər məlumat verməyinizi istərdik...***

- Ölkə ərazisində aksiz markası ilə markalanmalı olan malların dövriyyəsinin tənzimlənməsi hər bir ölkədə dövlətin xüsusi nəzarətində olur və həmin malların alqı-satqısı zamanı hesablaşmaların nağdsız qaydada aparılması zamanın tələbidir. Bununla əlaqədar, belə malların dövriyyəsinin tənzimlənməsi qaydalarının müəyyən edilməsi və həmin qaydaların tələblərini pozan şəxslərin İnzibati Xətalar və Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşımaları barədə müddəalar Vergi Məcəlləsinə daxil edilib.

*Davamı 3-cü səhifədə*

# Vergi Məcəlləsinə dəyişikliklər sahibkarların vergi yükünün azaldılmasına xidmət edir

*Əvvəli 2-ci səhifədə*

İnzibati Xətalar Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, dəyəri 50 manata kimi olan aksizli malların nağd qaydada satılması inzibati xəta kimi müəyyən edilib. Cinayət Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, dəyəri 50 manatdan 1000 manatadək olan aksizli malların nağd qaydada satışı, habelə külli miqdarda (1000 manatdan yuxarı) satışı, belə malların satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda alınması cinayət məsuliyyəti yaradır. Qeyd edək ki, tütün məmulatlarının topdan satışı da bu qanunun əhatə dairəsinə düşür.

Dəyişikliklərə əsasən, saxta aksiz markalarını hazırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan malları saxta aksiz markaları ilə markalama, (fiziki şəxslər tərəfindən pərakəndə satış obyektindən istehlak məqsədilə əldə etmə istisna olmaqla) saxta aksiz markaları ilə markalanmış malları əldə etmə, saxlama və ya satma cinayət əməli kimi müəyyən edilib.

Qeyd edim ki, ölkədə aksizli malların plastik kartlarla satışı üçün ölkə ərazisində yerləşən ticarət obyektlərində lazımi potensial mövcuddur. Vergi ödəyicilərinə məxsus təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması, onlardan istifadə olunmasının nəzarətdə saxlanılması, əhali ilə hesablaşmalar sahəsində qanunvericiliyə əməl olunması işləri daim diqqətdə saxlanılır. Ölkə ərazisində hazırda 84 min pos-terminal quraşdırılıb ki, bunun da 62 faizi Bakı şəhərinin payına düşür. Son illər ərzində Azərbaycanda elektron ödəniş sistemlərinin yaradılması istiqamətində aparılan islahatlar nəticəsində beynəlxalq standartlara cavab verən ödəniş sistemi infrastrukturu yaradılıb. Hazırda əhalinin bütün təbəqələri plastik kartlardan istifadə edir. Ölkədə 6 milyona yaxın şəxsin plastik kartı var ki, bu da bizə alkoqollu içkilərin nağdsız qaydada satışını həyata keçirməyə tam imkan verir. Aksizli malların nağdsız qaydada satışı bütövlükdə bu sahədə uçotun şəffaflaşdırılmasına və nağdsız ödənişlərin stimullaşdırılmasına da müsbət təsir göstərməlidir.

***- Vergi hüquqpozmalarına görə maliyyə sanksiyalarının artırılması da nəzərdə tutulur. Bu barədə nə deyə bilərdiniz?***

- Nağd pul əməliyyatlarının aparılması qaydalarının pozulmasına görə maliyyə sanksiyaları bütün sahibkarlıq subyektləri üçün artırılmayıb. Qeyd etdiyimiz kimi, dövriyyəsi 200.000 manatdan artıq olan və ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə edə bilərlər. Bu halda, onlar ƏDV ödəyicisi kimi qeydiyyata alınmırlar və beləliklə də, hüquqi şəxslər ƏDV, mənfəət və əmlak vergisi, fiziki şəxslər isə ƏDV və gəlir vergisinin ödənilməsindən azad edilirlər.

Dövlətin bu məsələdə sahibkarlara güzəştə getməsinin əsas məqsədi ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövriyyələri 200.000 manatı aşdığı təqdirdə belə, əldə etdikləri gəlirlər üzrə vergi uçotunun sadələşdirilmiş qaydada aparılmasına və dövriyyələrin şəffaflaşdırılmasına nail olmaqdan ibarətdir.

Bu halda nağd pul əməliyyatlarının aparılması qaydalarının pozulmasına görə sərt maliyyə sanksiyaları yalnız satış dövriyyəsi 200.000 manatdan artıq olan və sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə edən şəxslərə şamil ediləcək.

Yeni qaydalara görə, təqvim ili ərzində vergi hüquqpozmalarına birinci dəfə yol verən belə şəxslərə 2000 manat, ikinci dəfə 4000 manat, üç və daha çox hallarda yol verildikdə isə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq ediləcək.

Ticarət və ictimai iaşə sektorlarında çalışan və dövriyyəsi 200.000 manatadək olan sadələşdirilmiş vergi ödəyiciləri və dövriyyəsi 200.000 manatdan artıq olan, lakin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etməyən şəxslərə, vergi hüquqpozmalarına yol verdikləri təqdirdə, yenə əvvəlki kimi 400, 800 və 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq olunacaq.

Maliyyə sanksiyalarının artırılması vergi ödəyicilərinin məsuliyyətinin artırılması istiqamətində atılmış addımdır. Burada məqsəd sahibkarı cərimələmək yox, vergidən yayınmanın qarşısını almaq, dövriyyəni artırmaq və uçot sistemini daha da təkmilləşdirmək, vergilərin dövlət büdcəsinə tam həcmdə ödənilməsini təmin etməkdən ibarətdir.

***- Qanunvericiliyə edilmiş dəyişikliklərlə vergi borcları olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı vergi orqanlarına səlahiyyətlər verilib. Bunun səbəbi nədir?***

- Vergi borclarının alınması mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə bu il qəbul edilmiş dəyişikliklərdə hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinin təmin edilməsi üsulu kimi vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə müraciət etmək vergi orqanlarının hüquqlarına aid edilib.

Miqrasiya Məcəlləsində edilən dəyişikliklərə əsasən, istər Azərbaycan Respublikasının vətəndaşının, istərsə də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vergi borcu olduğu halda, vergi orqanlarının müraciətlərinə əsasən məhkəmə qərarı ilə onların ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılır.

Bununla yanaşı, qeyd olunan məsələ ilə əlaqədar məhkəmələrdə vergi orqanlarının müraciətlərinə baxılması qaydasını və mexanizmini tənzimləmək məqsədilə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində də müvafiq dəyişikliklər edilib.

«İcra haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən, hazırda məhkəmə qərarları əsasında verilmiş icra sənədləri könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, borclunun ölkədən getmək hüququ icra məmurunun əsaslandırılmış təqdimatı əsasında məhkəmənin qərarı ilə müvəqqəti məhdudlaşdırıla bilər. Bu Qanuna edilmiş dəyişikliyə əsasən borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasının məhkəmə qərarları əsasında verilmiş icra sənədləri ilə yanaşı, həm də vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları əsasında verilmiş icra sənədləri əsasında da həyata keçirilə bilər.

Onu da nəzərə almaq lazımdır ki, yeni qaydalara görə əvvəl olduğu kimi yalnız fiziki şəxslərin deyil, eləcə də hüquqi şəxslərin icra orqanının rəhbərinin də ölkədən getmək hüququ məhdudlaşdırıla bilər. Hazırda vergi borcuna görə 160-a yaxın fiziki şəxsin ölkədən getmə hüququna məhdudiyyət qoyulub və gələcəkdə intizamsız vergi ödəyicilərinə qarşı belə tədbirlərin daha geniş tətbiq ediləcəyi istisna deyil.

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur və hamı öz borcunu yerinə yetirərsə, bu kimi tədbirlərə də ehtiyac qalmayacaq.

Qanunla müəyyən olunmuş vergilərin dövlət büdcəsinə vaxtında və tam həcmdə daxil olmasına məsul olan vergi orqanları bundan sonra da vergi intizamının möhkəmləndirilməsi, vergidən yayınma hallarının qarşısının alınması istiqamətində tədbirləri davam etdirəcək, ölkəmizdə əlverişli biznes mühitinin formalaşması, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı Prezident İlham Əliyevin verdiyi göstərişlərin həyata keçirilməsini təmin edəcəklər.

# Qarşıda duran vəzifələr müzakirə olunub

Vergilər Nazirliyində «Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun və «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanununun təsdiq edilməsi ilə bağlı Vergilər Nazirliyinin qarşısında duran vəzifələrin icrasına həsr olunmuş kollegiya iclası keçirilmişdir.

İclasda çıxış edən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafının 2015-ci ildə də davam etdiyini, bu inkişafın stimullaşdırılması üçün büdcə-vergi mexanizmlərindən fəal istifadə olunduğunu nəzərə çatdırmışdır. Qeyd olunmuşdur ki, ölkə başçısının Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vergi orqanları qarşısında qoyduğu vəzifələrin icrasını təmin etmək məqsədilə vergitutma bazasının genişləndirilməsi, mövcud vergi potensialından daha səmərəli şəkildə istifadə olunması üçün ciddi vergi-büdcə təhlilləri aparılmışdır. Vergilər Nazirliyi tərəfindən müvafiq dövlət qurumları ilə razılaşdırılmaqla Vergi Məcəlləsinə və bir sıra qanunvericilik aktlarına dəyişikliklər edilməsi barədə konkret təkliflər verilmiş, bu dəyişikliklər 20 oktyabr 2015-ci il tarixdə Milli Məclis tərəfindən qəbul olunaraq, 7 dekabr 2015-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmişdir.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin böyük əksəriyyətinin vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi yolu ilə büdcə daxilolmalarının artmasına xidmət etdiyini vurğulayan F.Məmmədov qeyd etmişdir ki, dövlət büdcəsinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişlənməsinin təşviqi də vergi orqanlarının qarşısında duran əsas vəzifələrdəndir.

Bildirilmişdir ki, aparılan sosial-iqtisadi siyasətə uyğun olaraq, ölkə üzrə yaşayış minimumu və əməkhaqları davamlı şəkildə artırılır. Aylıq gəlirləri 250 manatdan az olan fiziki şəxslərin əməkhaqlarının artırılması nəticədə həmin şəxslərin güzəşt dairəsindən çıxmasına səbəb olur. Əməkhaqlarına tətbiq edilən vergi güzəştinin şamil olunduğu vergi ödəyicilərinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə Vergi Məcəlləsinə edilmiş dəyişiklik əhalinin gəlirlərini artırmaqla onların maddi rifahının yaxşılaşmasına müsbət təsir göstərəcək və əməkhaqlarının leqallaşmasını təşviq edəcəkdir. Bu vergi güzəştindən həm dövlət, həm də özəl sektorda çalışan 500 mindən artıq insan faydalana biləcəkdir.

Vergi yükünün azaldılmasına yönəldilmiş digər dəyişikliklər ƏDV-nin məqsədləri üçün qeydiyyata alınma öhdəliyi yaradan əməliyyatların həcminin 120 min manatdan 200 min manatadək, eləcə də ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcminin 60.000 manatdan 100.000 manatadək artırılması, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququnun verilməsi, daşınmaz əmlakın təqdim edilməsindən əldə olunan gəlirlərdən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə satış dövriyyəsi 200.000 manatdan artıq olduğu halda ticarət fəaliyyəti üzrə 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə 8 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnun verilməsidir. Bu dəyişikliklər, eləcə də məcburi ƏDV qeydiyyatına alınmaq öhdəliyi yaradan həddin artırılması dövriyyəsi 200 min manatadək olan şəxslərə sadələşdirilmiş vergitutma rejimində fəaliyyətlərini davam etdirməyə imkan verəcəkdir ki, bu da vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, həmin ödəyicilərin vergi yükünün azaldılmasını təmin edəcəkdir.

Bununla yanaşı, qeyd edilmişdir ki, idman mərc oyunlarından əldə olunan uduşların ödəmə mənbəyində vergiyə cəlb edilməsi, Nazirlər Kabinetinin müvafiq qərarı ilə idxalda ƏDV-dən azad olunan malların siyahısının Vergi Məcəlləsinə daxil edilməsi, qeyri-filiz faydalı qazıntılar üzrə mədən vergisi dərəcələrinin optimallaşdırılması, vergi borcları olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması, aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, alkoqollu içkilərin satışının yalnız nağdsız qaydada həyata keçirilməsi kimi məsələlərlə bağlı dəyişikliklər vergi intizamının güclənməsinə və nəticə etibarilə büdcəyə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərəcəkdir.

Dünyada baş verən qlobal iqtisadi dəyişikliklər nəticəsində ölkə iqtisadiyyatının yeni şəraitdə inkişaf etdiyini diqqətə çatdıran vergilər naziri bildirmişdir ki, bununla bağlı vergi orqanlarının üzərinə kifayət qədər çətin və məsuliyyətli vəzifələr düşür. Ölkə başçısı dəfələrlə vurğulamışdır ki, büdcənin cari xərcləri vergi daxilolmaları, habelə gömrük və digər daxilolmalar hesabına təmin edilməlidir və bu da vergi daxilolmaları üzrə proqnoz tapşırıqlarına tam həcmdə və vaxtında əməl olunması ilə bağlı Vergilər Nazirliyi tərəfindən çox ciddi tədbirlər görülməsini tələb edir.

Bir tərəfdən neftin qiymətinin aşağı düşməsi hesabına bu sahədən daxil olan gəlirlərin və müvafiq olaraq vergi daxilolmalarının azalması, digər tərəfdən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin xeyli hissəsinin sosial yönümlü olması, o cümlədən əhalinin böyük bir təbəqəsinin əməkhaqlarından tutulan gəlir vergisi, habelə ƏDV məqsədləri üçün vergi tutulan əməliyyatların həcminin və ƏDV qeydiyyatının ləğvi üçün vergi tutulan əməliyyatların həcminin artırılması nəticəsində vergi daxilolmalarında gözlənilən azalmaları da nəzərə almaqla, büdcəyə daha çox vergi yığılması üçün vergi bazası genişləndirilməli, vergidən yayınmağa cəhd göstərənlərə qarşı daha sərt inzibati tədbirlər görülməlidir ki, bütün bunlar artıq Məcəllədə öz əksini tapmışdır və 2016-cı ilin yanvar ayının 1-dən qüvvəyə minəcəkdir.



*Vergi Məcəlləsinə edilmiş dəyişiklik əhalinin gəlirlərini artırmaqla onların maddi rifahının yaxşılaşmasına müsbət təsir göstərəcək və əməkhaqlarının leqallaşmasını təşviq edəcəkdir*

«Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» Qanunun və digər normativ hüquqi aktların tətbiqi ilə əlaqədar konkret Tədbirlər Planının təsdiq edilməsi barədə əmr imzaladığını diqqətə çatdıran F.Məmmədov həmin planda nəzərdə tutulan tədbirlərin icrasının xüsusi əhəmiyyət daşıdığını vurğulamışdır. Bildirilmişdir ki, Tədbirlər Planında vergi qanunvericiliyində edilmiş dəyişikliklərə uyğun olaraq bir sıra yeni qaydaların hazırlanması və ya mövcud qaydalara dəyişiklik edilməsi, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsinin formasının və tərtib olunması qaydasının hazırlanması, idman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər tərəfindən ödəmə mənbəyində tutulan gəlir vergisi bəyannaməsinin forması və tərtib edilməsi qaydasının hazırlanması, illik dövriyyəsi 200 min manatdan artıq olan, ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə etmək üçün təqdim olunacaq məlumat formasının və onların uçota alınmaq qaydasının hazırlanması, 2016-cı ilin 1 yanvar tarixinə illik dövriyyəsi 200 min manat və az olan ƏDV ödəyicilərinin sadələşdirilmiş vergi ödəyicisi olmaq rejiminə keçid mexanizminin hazırlanması, saxta aksiz markaları ilə markalanmış malların müəyyən edilmə mexanizminin işlənib hazırlanması, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikinti-quraşdırma işlərinə başlanması və seçdiyi vergitutma metodu barədə verilən məlumat formasının və onun tərtib edilmə qaydasının hazırlanması, nəzarət-kassa aparatının quraşdırılması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi, bu kimi digər məsələlərlə bağlı treninqlərin keçirilməsi öz əksini tapmışdır.

Tədbirlər Planında büdcə proqnozları və onların icrası, Vergi Məcəlləsindəki dəyişikliklərlə bağlı vergi ödəyicilərinə göstəriləcək xidmətlər, əhalinin və vergi ödəyicilərinin KİV-lər vasitəsilə məlumatlandırılması, vergi ödəyiciləri ilə görüşlərin keçirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi və sadələşdirilməsi, vergi ödəyicilərinin təsərrüfat subyektlərinin inventarizasiyasının keçirilməsi, operativ vergi nəzarəti tədbirlərinin keçirilməsi zamanı tərtib olunan akt və inzibati xətalara dair işlər haqqında protokolun formasının tədqiq edilməsi, kadr və tədris məsələləri, yeni proqramlar əsasında vergi orqanı əməkdaşlarına təlimlərin keçilməsi də nəzərdə tutulur.

Yekunda vergilər naziri müzakirə olunan məsələlərlə bağlı konkret tapşırıqlarını vermişdir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlak vergisi

***Direktoru olduğum məhdud məsuliyyətli cəmiyyətin istifadəsində olan əmlaka görə əmlak vergisi ödəməliyəmmi?***

Vergi Məcəlləsinin (VM) 196-cı maddəsinə əsasən, VM-in 197-ci maddəsində göstərilən vergitutma obyektləri olan fiziki şəxslər və müəssisələr əmlak vergisinin ödəyiciləridir. VM-in 197.1.3-cü maddəsində qeyd edilir ki, müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri əmlak vergisi üzrə vergitutma obyekti sayılır.

Vergitutma məqsədləri üçün müəssisənin əmlakının orta illik qalıq dəyəri VM-in 202-ci maddəsinə uyğun müəyyən edilir. Bu maddədə müəssisələrin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) orta illik qalıq dəyərinin müəyyən edilməsi qaydası müxtəlif meyarlara əsasən fərqləndirilir.

Müəssisənin əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) hesabat ilinin əvvəlinə (əvvəlki vergi ilinin sonuna müəyyən edilən qalıq dəyərindən həmin il üçün hesablanmış amortizasiya məbləği çıxıldıqdan sonra qalan dəyər) və sonuna qalıq dəyəri toplanıb ikiyə bölünür. Müəssisənin əmlakının orta illik qalıq dəyəri hesablanarkən əsas vəsaitlərin (vəsaitin) yenidən qiymətləndirilməsindən yaranan artım (yenidənqiymətləndirilmə nəticəsində yaranan müsbət fərq) nəzərə alınmır (VM, maddə 202.0.1).

Müəssisə hesabat ili ərzində yaradıldıqda və ya əmlak vergisi ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu tarixə və ilin sonuna balans üzrə qalıq dəyəri toplanaraq 24-ə bölünür və müəssisənin yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu aydan sonra, ilin sonuna qədər olan ayların sayına vurulur (VM, maddə 202.0.2).

Müəssisə hesabat ili ərzində ləğv edildikdə və ya sadələşdirilmiş verginin ödəyicisi olduqda əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) ilin əvvəlinə və ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən müəssisənin ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu aya qədər olan ayların sayına vurulur (VM, maddə 202.0.3).

VM-in 201.1.1-ci maddəsinə əsasən, müəssisənin əmlakı qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda, əmlak vergisi VM-in 14.3.4-cü maddəsinə əsasən müəyyən edilmiş dəyərə əmlak vergisinin dərəcəsi tətbiq edilməklə hesablanır. Sığortalanan əmlakın dəyəri bazar qiyməti nəzərə alınmaqla müəyyən edildiyi halda, VM-in 202-ci maddəsinin müddəaları tətbiq edilmir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, müəssisələrin əmlak vergisi üçün vergi dövrü təqvim ili sayılır və bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar istisna olmaqla müəssisələrin əmlak vergisi dövlət büdcəsinə ödənilir.

Müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir.

VM-in 201.3-cü maddəsinə əsasən, əmlak vergisi ödəyiciləri cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin məbləğinin 25 faizi həcmində vergi ödəyir.

Əmlak vergisi üzrə cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Vergi xidməti əməkdaşları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad ediblər



Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya şöhrətli siyasi xadim, ümummilli lider Heydər Əliyevin vəfatından on iki il keçdi. Bu illər ərzində görkəmli şəxsiyyətin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilmişdir. İnsanlar burada xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi Böyük Azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər. Paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanı ziyarət edərək, Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər qoyur, gül dəstələri düzürlər.

Ümummilli lider Heydər Əliyevin vəfatının ildönümü günü - dekabrın 12-də Vergilər Nazirliyinin kollektivi də, hər il olduğu kimi, Fəxri xiyabana gələrək ulu öndərin məzarını ziyarət etmişdir. Dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilmiş, məzarı önünə gül-çiçək dəstələri qoyulmuşdur.

# Vergilər Nazirliyinə daxil olmuş vətəndaş müraciətləri

2015-ci ilin noyabr ayı ərzində vergi orqanlarına 8933 müraciət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,5% çoxdur. Daxil olmuş müraciətlərdən 95,5%-i ərizə, 4,3%-i şikayət, 0,2%-i təklifdir.

Müraciətlərin 34,3%-i müxtəlif arayışların alınması, 33,9%-i kameral vergi yoxlamaları, 7%-i vergi borcları, 2,6%-i səyyar vergi yoxlamaları, 1,7%-i operativ vergi nəzarəti tədbirləri, 0,6%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,5%-i korrupsiya hüquqpozmaları, qalanları isə digər məsələlərlə bağlı olmuşdur. Müraciətlərdən 61,3%-i müsbət həll olunmuşdur.

Hesabat dövründə vergi orqanları tərəfindən ümumilikdə 298 vətəndaş qəbul edilərək, onlara mövcud qanunvericilik çərçivəsində lazımi köməklik göstərilmiş və ya müvafiq izahatlar verilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın şəhər və rayonlarında vətəndaşların qəbulu qrafikinə əsasən, 27 noyabr 2015-ci il tarixdə vergilər naziri Fazil Məmmədov Biləsuvar rayonunda vətəndaşları qəbul etmişdir.

# Vergi boşluqlarının qiymətləndirilməsi

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində «Vergi boşluqlarının qiymətləndirilməsi: Nə məqsədlə? Necə?» mövzusunda seminar keçirilmişdir. Tədbirdə «Birləşmiş Krallıqda vergi boşluğunun qiymətləndirilməsi anlayışı», «Norveçdə vergi boşluğu - layihənin başlanğıcı», «Danimarkada vergi boşluğunun qiymətləndirilməsi», «Hekman metodu və risk əsaslı audit məlumatlarından istifadə», «Təsadüfi sorğu proqramlarına giriş və onların istifadəsi», «Aksiz - ev təsərrüfatları büdcələrinin sorğusunda istifadə olunan müşahidələr, sərhəd problemləri» və s. mövzularda təqdimatlar dinlənilmiş, qrup müzakirələri aparılmışdır.

Seminarda Azərbaycanı Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin İqtisadi təhlil və proqnozlaşdırma idarəsinin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin əməkdaşı Amil Behbudov təmsil etmişdir.

# Vergidən yayınanlar yaxalandılar

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti və Bakı Vergilər Departamenti tərəfindən dekabrın 12-də Binəqədi rayonunda fiziki şəxs Emin Vahid oğlu Quliyevə məxsus şirniyyat və digər un məmulatlarının istehsalı ilə məşğul olan obyektdə operativ nəzarət tədbirləri keçirilmişdir. Tədbir zamanı obyektdə üzərində vergi ödəyicisinin soyadı, adı, atasının adı, VÖEN-i və malın saxlanma müddəti barədə məlumatlar yazılmış etiketlər olan 151 ədəd müxtəlif ölçülü paketlərdə qablaşdırılmış makaron məmulatları, 233 qutu müxtəlif növ şirniyyat məhsulları, 67 kisə un, 2 kisə şəkər, 3 ədəd 5 litrlik qablarda bitki yağı və digər xammal aşkar edilmiş, istehsal sobalarının istifadəyə hazır vəziyyətdə olduğu müəyyən edilmişdir.

Həmin gün Sabunçu rayonu ərazisində yerləşən, fiziki şəxs Nahid Tapdıq oğlu Əliyevin un məmulatları istehsal etdiyi qeyri-yaşayış sahəsində keçirilmiş operativ nəzarət tədbiri zamanı obyektdə içərisində fiziki şəxsin adı və ona məxsus olmayan başqa bir VÖEN göstərilmiş etiketlərlə 864 ədəd sellofan paketdə «Russkaya Korona» adı ilə qablaşdırılmış makaron, vermişel, əriştə məhsulları, eləcə də 63 kisə un aşkar edilərək müvafiq qaydada rəsmiləşdirilmişdir. Bunlardan əlavə, vergi ödəyicisinin əmək qanunvericiliyini kobud şəkildə pozaraq əmək müqaviləsi bağlamadan 6 nəfər fiziki şəxsi işə cəlb etdiyi də aşkar olunmuşdur.

N.Əliyev 30 oktyabr 2012-ci ildən, E.Quliyev isə 17 yanvar 2015-ci ildən vergi ödəyicisi kimi fəaliyyətlərini müvəqqəti dayandırsalar da, aparılan araşdırmalar zamanı hər iki şəxsin faktiki olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu, gəlir əldə etdiyi, vergi orqanına bəyannamə təqdim etmədiyi və dövlət büdcəsinə vergi ödəmədiyi müəyyən olunmuşdur.

Vergi hüquqpozmaları ilə yanaşı, istehsal sahələrində sanitar-gigiyenik normalara riayət olunmadığı, obyektlərdə antisanitariya şəraitinin hökm sürdüyü aşkar edilmişdir.

Hər iki vergi ödəyicisinin istehsal və satış dövriyyəsini müəyyənləşdirmək üçün əhəmiyyət kəsb edən qara mühasibat sənədləri maddi sübut qismində götürülmüşdür. Buna paralel olaraq, həmin şəxslərin istehsal etdikləri malların satışını həyata keçirən bir qrup vergi ödəyicisi ətrafında da müvafiq tədbirlər həyata keçirilmişdir. Yuxarıda adları göstərilən vergi ödəyicilərinə aid obyektlərdə istehsal olunub satışa verilmiş mallar nümunə kimi götürülərək, onlar arasında mal dövriyyəsinin həcmi müəyyən edilmişdir.

Aşkarlanmış qanun pozuntuları rəsmiləşdirilmişdir. Qanunu pozanlar barədə qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görüləcəkdir.

# Vergi işçisinin etik davranış qaydaları

Vergilər nazirinin 9 dekabr 2015-ci il tarixli əmri ilə təsdiq olunmuş «Dövlət vergi orqanları əməkdaşlarının etik davranış Qaydaları» vergi əməkdaşının dövlət vergi orqanlarına, digər əməkdaşlara, fiziki və hüquqi şəxslərə, o cümlədən vergi ödəyicilərinə münasibətdə riayət etməli olduğu etik davranış qaydalarını, bu qaydalara əməl olunmasına nəzarət və onun pozulmasına görə məsuliyyət, habelə əməkdaşın fiziki və hüquqi şəxslərin təzyiq və qeyri-etik davranışlarından müdafiə olunması məsələlərini tənzimləyir.

Qaydaların əsas məqsədlərinə daxildir:

- vergi orqanlarının və əməkdaşların nüfuzunun artırılması;
- fiziki və hüquqi şəxslərin, o cümlədən vergi ödəyicilərinin vergi orqanlarına və əməkdaşlarına etimadının yüksəldilməsi;
- vergi əməkdaşlarının etik davranış qaydalarına riayət etmə səviyyəsi baxımından vergi orqanlarının nümunəvi dövlət orqanları kimi tanınması;
- vergi orqanlarının və əməkdaşlarının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, korrupsiya hallarının qarşısının alınması.

Etik davranış qaydalarının pozulması ilə bağlı müraciətlər yazılı və ya şifahi formada təqdim oluna bilər. Müraciətlər dərhal qəbul edilməli və həmin gün qeydiyyata alınmalıdır. Etik davranış qaydalarının pozulması ilə bağlı anonim hesab edilən müraciətlərə baxılmır, lakin belə müraciətlər etik davranış qaydaları ilə bağlı ümumi vəziyyətin dəyərləndirilməsi məqsədilə istifadə oluna bilər.

Qəbul edilmiş Qaydaların tələblərinin vergi orqanı əməkdaşı tərəfindən pozulması intizam məsuliyyətinə səbəb olur.

***Əməkdaşlardan tələb olunur...***

***Qaydalara görə, vergi orqanı əməkdaşı insanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə hörmət etməli, qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin, o cümlədən digər əməkdaşların şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olan məlumatların məxfiliyini təmin etməlidir. Fiziki və hüquqi şəxslərin, o cümlədən vergi ödəyicilərinin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onları haqsız olaraq nüfuzdan sala biləcək hərəkətlərə yol verməməlidir. Eyni zamanda, vəzifə funksiyalarını yerinə yetirərkən və ya qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, yaşına, mənşəyinə, əmlak vəziyyətinə, yaşayış yerinə, əqidəsinə, ictimai və digər birliklərə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməli, xidməti vəzifələrinin icrası ilə bağlı olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, bundan imtina etməli və Qaydalarda qeyd olunan digər məsələlərə riayət etməlidir.***

**AYTƏN**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci il dekabrın 1-nə olan məlumata görə, Nazirlər Kabinetinin təsdiqlədiyi **462** xidmətdən **345-i** "Elektron hökumət" portalına inteqrasiya olunub.
- Azərbaycan İpoteka Fondunun agent bankları indiyədək **17 min 875** ipoteka krediti verib.
- Bu ilin noyabr ayında Azərbaycanda boru kəməri nəqliyyatı ilə neftin nəql olunması qiyməti **0,2%** ucuzlaşıb, qazın nəql edilməsi qiyməti isə 0,1% bahalaşıb.
- Ötən ay Azərbaycanın mədənçıxarma sənayesində xam neft hasilatı üzrə istehsalçı qiymətləri **8,2%**, neft məhsullarının istehsalı üzrə istehsalçı qiymətləri isə **1,9%** ucuzlaşıb.

# KİV nümayəndələri ilə görüş

Dünən Vergilər Nazirliyində media nümayəndələri ilə görüş keçirilib. Vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov jurnalistləri salamlayaraq bildirib ki, görüşün əsas məqsədi vergi qanunvericiliyinə və bir sıra qanunvericilik aktlarına edilmiş dəyişikliklərlə bağlı media nümayəndələrini məlumatlandırmaq, ortaya çıxan suallara aydınlıq gətirməkdir.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli iqtisadiyyat Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında böyük inkişaf yolu keçib, vergi ödəyicilərinin sayı artıb və ölkədə formalaşan sahibkarlar təbəqəsi iqtisadiyyatımızın aparıcı hissəsinə çevrilib. Ölkə başçısının yürütdüyü davamlı iqtisadi inkişaf strategiyası nəinki sabit iqtisadi inkişaf dövründə, eləcə də dünyada qlobal iqtisadi dəyişikliklərin baş verdiyi müasir şəraitdə də böhranların yaratdığı problemlərin təsirlərini azaltmağa, ölkəmizin sosial-iqtisadi inkişafının sabitliyini təmin etməyə, sahibkarların fəaliyyətinin inkişafına zəmanət verir. Bu strategiyanın gələcəkdə də davamlı olması üçün dövlət büdcəsinin gəlirlər hissəsi artmalı, həm biznes strukturları, fərdi sahibkarlar, həm də vergi orqanları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.



Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Natiq Şirinov dəyişikliklərin böyük əksəriyyətinin vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi yolu ilə büdcə daxilolmalarının artmasına xidmət etdiyini vurğulayıb. Qeyd edilib ki, dövlət büdcəsinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsinin təşviqi də bu gün qarşıda duran əsas vəzifələrdəndir.

«Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanununun əsas istiqamətlərini əhatə edən aşağıdakı məsələlər barədə ətraflı şərhlər verilib:

- fiziki şəxslərin əmək haqlarına verilən güzəştlərin əhatə dairəsinin genişləndirilməsi,
- ƏDV-nin məqsədləri üçün ərizəvermə öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcminin 120.000 manatdan 200.000 manatadək artırılması;
- ticarət və ictimai iaşə sektorunun vergiyə cəlb olunması;
- daşınmaz əmlakın təqdim edilməsindən əldə olunan gəlirlərdən notariuslar tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş verginin tutulması;
- aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi;
- vergi borcları olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması;
- hüquqi şəxslərin əmlak vergisi, qeyri-filiz faydalı qazıntılar üzrə mədən vergisi dərəcələrinin optimallaşdırılması və s.

Sonra KİV nümayəndələrinin çoxsaylı sualları cavablandırılıb.

# Komissiyanın ilk iclası keçirilib

Vergilər Nazirliyində vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə yaradılmış komissiyanın ilk iclasında komissiyanın sədri, vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov çıxış edərək bildirmişdir ki, dövlət başçısı Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vergi orqanlarının şəffaf və səmərəli işləməsi, büdcəyə daha çox vəsait toplaması, bunun üçün imkanların və ehtiyatların mövcud olduğunu vurğulamış, bununla bağlı Vergilər Nazirliyi qarşısında bir sıra mühüm vəzifələr qoymuşdur.

Bu vəzifələri icra etmək üçün həyata keçirilən tədbirlərə toxunan nazir qeyd etmişdir ki, inkişafının yeni mərhələsinə qədəm qoyan Azərbaycan iqtisadiyyatının qarşılaşdığı qlobal çağırışlara cavab verməyə çalışan vergi orqanları ilin əvvəlindən Vergi Məcəlləsinə zəruri dəyişikliklərin edilməsi məqsədilə təkliflər hazırlayaraq aidiyyəti dövlət orqanları ilə razılaşdırmış və ölkə rəhbərliyinə təqdim etmişdir. Dövlət başçısı tərəfindən Milli Məclisin müzakirəsinə verilmiş bu təkliflər parlamentdə müzakirə olunaraq müvafiq qərar qəbul edilmiş və dekabrın 7-də həmin dəyişikliklərlə bağlı Qanun imzalanmışdır. Qanunun icrası mövcud vergi inzibatçılığının daha da təkmilləşdirilməsini tələb etdiyindən, yeni yaradılmış komissiyaya müasir dünya təcrübəsinə əsaslanaraq vergi inzibatçılığının təkmilləşdirilməsini nəzərdə tutan əsas istiqamətləri - vergi siyasəti, vergi nəzarəti, vergi ödəyicilərinə xidmət, ibtidai istintaq və vergi borclarının idarə edilməsi, hüquqi təminat, apelyasiya sistemi, insan resursları, daxili nəzarət, beynəlxalq əlaqələr, icra intizamı, informasiya təhlükəsizliyi, maddi-texniki təchizat və struktur dəyişikliklərini əhatə edən məsələlərlə bağlı təkliflər hazırlamaq tapşırılmışdır. İşi sürətləndirmək məqsədilə vergilər nazirinin müavinlərinin və müşavirlərinin rəhbərlik etdiyi işçi qruplar yaradılmışdır.

# «Azərbaycanın vergi jurnalı»nın növbəti nömrəsi çapdan çıxıb

Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan «Azərbaycanın vergi jurnalı»nın bu ilin 5-ci nömrəsində ənənəvi «Rəsmi» rubrikasında Prezident İlham Əliyevin mühüm iqtisadi məsələlərə həsr olunmuş çıxış və nitqlərinin geniş xülasəsi verilmişdir.

Jurnalda Milli Məclisin İqtisadi siyasət komitəsinin iclasında «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» qanun layihəsinin, Milli Məclisin plenar iclasında 2016-cı ilin dövlət büdcəsinin və büdcə zərfinə daxil olan digər məsələlərin layihələrinin müzakirəsi haqqında, eləcə də Vergilər Nazirliyinin kollegiya iclasları haqqında hesabatlar təqdim olunmuşdur.

Jurnalın bu buraxılışında vergilər naziri Fazil Məmmədovun sentyabrın 18-də Naftalan şəhərində Naftalan, Daşkəsən, Göygöl və Kəlbəcər rayonlarından, oktyabrın 23-də isə Beyləqan şəhərində Beyləqan, Ağcabədi, İmişli, Füzuli və Laçın rayonlarından olan vətəndaşlar üçün keçirdiyi qəbullar haqqında məlumat verilmişdir.

Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin rəisi Zeynalabdin Məmmədzadənin müsahibəsi son vaxtlar nazirlikdə həyata keçirilən islahatlar, vergi borclarının alınması sahəsində görülən işlər barədədir.

Jurnalın bu nömrəsində sentyabrın 22-də Vergilər Nazirliyində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü ilə keçirilən «Sülh aylığı» çərçivəsində «Azərbaycanın vergi jurnalı» redaksiyası tərəfindən «Sosial-iqtisadi hüquqların müdafiəsi: dövlət və vətəndaş məsuliyyəti» mövzusunda təşkil olunmuş «dəyirmi masa»dan geniş hesabat dərc olunmuşdur.

«Qanunçuluq» rubrikasında Azərbaycan Respublikası Prezidentinin bu ilin sentyabr və oktyabr aylarında vergi və sahibkarlıq məsələləri ilə bağlı imzaladığı qanun, fərman və sərəncamları verilmişdir.




Bu buraxılışında Dünya Bankının «Doing Business 2016» hesabatında Azərbaycana aid göstəricilərin təhlilini əks etdirən məqalə ilə də tanış olmaq mümkündür.

Elmi məqalələr blokunda P.Rzayevin «Ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərində vergitutmanın xüsusiyyətləri», V.M.Gülməmmədovun «Rəqabət mühitinin determinantları və vergi siyasəti arasında əlaqələrin tədqiqi», R.K.Əhmədovun «Aqrar sektorun maliyyə təminatının yüksəldilməsində vergi güzəştlərinin rolu», B.N.Əhmədovun «Azərbaycan bank sektorunun cari maliyyə stabilliyi: beynəlxalq-müqayisəli və ölkədaxili qiymətləndirmə», F.F.Hüseynlinin «Tədiyyə balansının formalaşmasına təsir edən amillər», F.H.Beşirovun «Sahibkarlığın nəzəri konsepsiyaları və formalaşması xüsusiyyətləri», E.A.Abbasovun «Azərbaycanda kənd təsərrüfatı kreditlərinin kənd təsərrüfatı istehsalına təsirinin ekonometrik qiymətləndirilməsi», X.R.Cavadovun «Milli innovasiya sistemlərinin yaradılması üzrə beynəlxalq təcrübə və onun Azərbaycanda tətbiqinin genişləndirilməsi imkanları» sərlövhəli məqalələri dərc olunmuşdur.

«Dünya iqtisadiyyatı» rubrikasında Macarıstan Respublikasının iqtisadiyyatına, ölkənin vergi sisteminə ətraflı nəzər salınmışdır.

«Elm korifeyləri» başlığı altında 2015-ci ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş ingilis iqtisadçısı Enqus Ditonun həyat və yaradıcılıq yolu işıqlandırılmışdır.

# Azərbaycan Respublikasının ərazisində aksiz markası ilə markalanmalı olan malların istehsalını, idxalını, satışını və alışını həyata keçirən vergi ödəyicilərinin NƏZƏRİNƏ!

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanının 1-ci hissəsinə əsasən, «Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları» təsdiq edilmiş və 1 yanvar 2016-cı il tarixdən qüvvəyə minəcəkdir.

Qaydaların 3.2-ci bəndinə əsasən, markalanmalı olan malların (tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla) satılması və satış məqsədi ilə alınması zamanı həmin malların dəyərinin nağd qaydada ödənilməsinə yol verilmir.

Vergi Məcəlləsinin 194.1-1-ci maddəsinə əsasən, aksiz markası ilə markalanmalı olan malların alışı və satışı «Aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi Qaydaları»nın tələblərinə uyğun olaraq aşağıdakı hallarda həyata keçirilməlidir:

**- aksiz markası ilə markalanmalı olan malların istehsalı, idxalı və ya satışı üçün müvafiq lisenziya olduqda;**

**- həmin malları təqdim edən şəxs tərəfindən malların dəyərinin nağdsız qaydada ödənilməklə əldə olunmasını təsdiq edən sənədlər mövcud olduqda;**

**- həmin malların təqdim edilməsi (fiziki şəxslərin fərdi istehlakının ödənilməsi məqsədilə pərakəndə ticarət və iaşə obyektlərində təqdim edilmə halları istisna olunmaqla) ciddi hesabat blankı ilə rəsmiləşdirildikdə.**

Yuxarıda göstərilən tələblərdən hər hansı birini pozan şəxs Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallar üzrə məsuliyyət daşıyır.

İnzibati Xətalar Məcəlləsinin 229.2-ci maddəsinə əsasən, tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan məhsulların (malların) nağd qaydada az miqdarda (50 manatadək) satılması, belə məhsulların (malların) satış məqsədləri üçün nağd qaydada az miqdarda alınması üçün yüz manat cərimə nəzərdə tutulur.

Cinayət Məcəlləsinin 213-1.3-cü maddəsində isə göstərilir ki, tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada xeyli miqdarda (50 manatdan 1000 manatadək) satma, belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda alma min manatdan iki min manatadək cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 213-1.4-cü maddəsinə görə isə eyni əməllər külli miqdarda (1000 manatdan yuxarı) törədildikdə iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq olunur.

Yuxarıda göstərilənləri nəzərə alaraq, 1 yanvar 2016-cı il tarixdən istehsal və satış obyektlərində aksiz markası ilə markalanmalı olan malların nağdsız satılması həyata keçirilməli və müvafiq lisenziya, habelə malların dəyərinin nağdsız qaydada ödənilməklə əldə edilməsini təsdiq edən sənədlər mövcud olmalıdır.

Qanunun tələblərinə görə, markalanmalı malları istehsal edən, idxal edən, satan və alan (fərdi istehlakının ödənilməsi məqsədilə alan fiziki şəxslər istisna olunmaqla) şəxslər həmin malların əldə olunmasını təsdiq edən müvafiq sənədləri bu sahədə nəzarəti həyata keçirən Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının tələbi ilə onlara təqdim etməlidirlər.

Qeyd edilənlərlə bağlı satış (iaşə) obyektlərində hazırda qalıqda olan və 1 yanvar 2016-cı il tarixədək alınacaq aksiz markası ilə markalanmalı olan malların inventarizasiyasının aparılmasının və həmin malların sənədləşməsinin 1 yanvar 2016-cı il tarixədək yuxarıda göstərilən tələblərə uyğunlaşdırılması tövsiyə olunur.

Əks təqdirdə, inzibati və cinayət məsuliyyətinə səbəb ola biləcək cəzalara məruz qala bilərsiniz və bu halda məsuliyyət öz üzərinizdə qalacaqdır.

Yaranmış suallarla bağlı Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

**AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ**

# Dövlətin vergisini hər kəs tam şəkildə ödəməlidir

## Bəs şou-biznes nümayəndələri ölkə başçısının bu göstərişinə necə əməl edirlər?

*Bir müddət əvvəl mətbuatda vergidən yayınan şou-biznes nümayəndələrinə qarşı tədbirlər görüləcəyi barədə məlumat verilmişdi. Artıq bununla bağlı ilk addımlar da atılmaqdadır. Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəis müavini, İqtisadi təhlil və proqnozlaşdırma idarəsinin rəisi Fərid Cəbrayıl mövzu ilə bağlı suallarımızı cavablandırır.*

***- Fərid müəllim, şou-biznes nümayəndələrinin gəlirlərinin düzgün rəsmiləşdirilməsi məsələsi son aylar geniş müzakirə edilir. Vergilər Nazirliyi tərəfindən hazırda bununla bağlı hansı addımlar atılır?***

- Azərbaycanda şou-biznes sahəsində çalışan 3000-ə yaxın fiziki şəxs vergi ödəyicisi kimi qeydiyyatdadır və onların əksəriyyəti müğənni, prodüser, ifaçı, tamada və digər bu kimi fəaliyyətlə məşğul olur. Təəssüflə qeyd etmək lazımdır ki, bu gün şou-biznes fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri arasında vergi öhdəliklərinə əməletmə səviyyəsi arzuolunan səviyyədə deyil. 2015-ci ilin ötən doqquz ayının nəticələri təhlil olunarkən bir çox tanınmış şou-biznes nümayəndələrinin faktiki olaraq əldə etdikləri gəlirlərlə rəsmi bəyan etdikləri vergi məbləğləri arasında ciddi uyğunsuzluqlar aşkar olunmuşdu. Ümumiyyətlə, şou-biznes nümayəndələrinin toylarda və digər tədbirlərdə çıxış etmək müqabilində aldıqları və kütləvi informasiya vasitələrində açıq şəkildə dəfələrlə bəyan etdikləri qonorarların məbləği ilə müqayisədə onların ödədikləri vergilər çox azdır.

Hazırda şou-biznes və musiqi fəaliyyəti ilə məşğul olan, əyləncə obyektlərində fərdi qaydada çıxış edən sənət adamlarının vergi öhdəliklərinə vaxtında və tam həcmdə əməl etmələrinə nəzarət gücləndirilmiş, həmin şəxslərin gəlirləri və dövlət büdcəsinə ödədikləri vergilərin məbləğləri araşdırılmaqdadır. Oktyabr ayından başlayaraq, Vergilər Nazirliyi tə-



rəfindən bu sahədə çalışan şəxslərə vergi öhdəliklərinə əməl olunmasının vacibliyi ilə bağlı dəfələrlə xəbərdarlıq edilib. 2942 vergi ödəyicisinə təqdim etdikləri bəyannamələrdəki uyğunsuzluqlarla bağlı bildiriş məktubları göndərilib və artıq 1000-dən yuxarı şəxsə 749,3 min manat əlavə vergi hesablanıb. Hazırda bu məbləğin dövlət büdcəsinə alınması üçün qanunamüvafiq tədbirlər görülür. Borclu vergi ödəyiciləri vergi orqanlarına dəvət olunur, yaranmış vəziyyətin tezliklə aradan qaldırılması məqsədilə onlarla müzakirələr aparılır.

***- Nəticələr nə göstərir?***

- Təəssüf ki, müəyyən irəliləyişlər olsa da, şou-biznes nümayəndələrinin xeyli hissəsi hələ ki, gözləmə mövqeyi tutmağa üstünlük verirlər.

***- Xəbərdarlıqlara məhəl qoymayan və vergidən yayınmağa davam edən şou-biznes nümayəndələrinə qarşı bundan sonra hansı tədbirlər görüləcək?***

- Vergi öhdəliklərini ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı qanunvericilikdə kifayət qədər ciddi tədbirlər nəzərdə tutulub. Vergi orqanları şou-biznes nümayəndələrinə münasibətdə hələ ki, bu tədbirlərə əl atmayıb və dəfələrlə onları vergi uçotuna durmağa, vergi öhdəliklərinə əməl etməyə dəvət edib. Lakin bu xəbərdarlıqların və vergi orqanlarının «yumşaq» davranışının limiti artıq bitib və bundan sonra vergidən yayınanlara qarşı əmlakın siyahıya alınması, mülkiyyətində olan avtonəqliyyat vasitəsi üzərinə həbs qoyularaq cərimə meydançasına aparılması və müvafiq məhkəmə qərarı ilə hərracda satılaraq əldə olunmuş vəsaitin vergi borcunun ödənilməsinə yönəldilməsi, borclu vergi ödəyicisinin ölkədən çıxışına müvəqqəti məhdudiyyət qoyulması, borcun məbləği iki min manatdan çox olduqda, belə şəxslər barəsində cinayət işinin açılması və digər qanunla nəzərdə tutulmuş tədbirlər görüləcək.

Bu məsələdə ictimai qınaq da olduqca vacib amildir. Vergilər Nazirliyinin rəsmi internet səhifəsində, eləcə də KİV-lərdə borclu vergi ödəyiciləri ilə bağlı müntəzəm olaraq ictimaiyyətə məlumat verilir. Nazirliyin saytında borclu vergi ödəyicilərinin, vergi borcuna görə ölkədən getmək hüququ məhdudlaşdırılmış və barəsində cinayət işi açılmış vergi ödəyicilərinin siyahısı ilə tanış olmaq mümkündür. Gələn həftə bu siyahıya vergi borcu olan şou-biznes nümayəndələrinin adları da əlavə olunacaq və «Vergilər» qəzetinin növbəti nömrəsindən başlayaraq, həmin siyahı mərhələ-mərhələ dərc olunacaq.

Qanun, kimliyindən asılı olmayaraq, hamı üçün Qanundur. Tanınmışlar isə Qanuna əməl etməklə başqalarına da nümunə göstərməlidirlər. Ayda 300-400 manat maaş alan müəllim, tibb işçisi, fəhlə dövlətin vergisini qəpiyinə qədər ödədiyi halda, onlardan on dəfələrlə çox qazanc əldə edən bəzi şəxslər nəyə görə vergidən yayınmalıdırlar? Məgər onlar bilmirlər ki, büdcədən yayındırılan hər bir manat nəticə etibarilə ağır şəraitdə düşmənlə üzbəüz dayanıb torpaqlarımızı qoruyan hərbçilərdən, aztəminatlı insanlardan, sosial layihələrdən oğurlanan vəsaitdir?

***- Qarşıdan Yeni il gəlir. Şəhərimizin bütün şadlıq evləri və əyləncə məkanlarında şou-tədbirlər, Yeni il şənlikləri təşkil olunur. Şou-biznes nümayəndələrinin bu tədbirlərdən əldə etdikləri gəlirlərin vergiyə cəlb olunmasına nəzarət olunacaqmı?***

- Biz çox istərdik ki, belə şənliklərin, bayramların sayı və bu sahədə çalışanların əldə etdikləri qazancın məbləği daha yüksək olsun. İnsanlarımız nə qədər çox gəlir əldə etsələr, onların büdcəyə ödədikləri vergilərin məbləği də bir o qədər böyük olacaq. Büdcəmizin artması isə insanlarımızın daha yaxşı yaşaması üçün zəmin yaradır.

Nəzarət məsələsinə gəldikdə, qeyd etməliyəm ki, Vergi Məcəlləsinin 16.1.1 maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri, habelə bu məcəllə ilə müəyyən olunmuş qaydada hesablanmış faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını və digər məcburi ödənişləri ödəmək vergi ödəyicisinin borcudur. Vergi Məcəlləsinin 24.0.2 maddəsinə əsasən, vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət etmək isə vergi orqanlarının vəzifəsidir.

Əgər nəzarət tədbirləri nəticəsində vergidən yayınma halları aşkar edilərsə, kimliyindən asılı olmayaraq, belə şəxslərə qarşı qanunda nəzərdə tutulmuş bütün vasitələrdən istifadə ediləcək.

**Hazırladı: Fəxriyyə İKRAMQIZI**

# “Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında” bildiriş və məlumat forması təsdiq edilib

Vergi Məcəlləsinin 155.1-ci maddəsində edilmiş dəyişikliyə əsasən, 2016-cı il yanvarın 1-dən vergi ödəyicisinin ƏDV-nin məqsədləri üçün qeydiyyata dayanmaq öhdəliyini yaradan vergi tutulan əməliyyatlarının həcmi 120.000 manatdan 200.000 manatadək artırılır. Vergi Məcəlləsi ilə vergi ödəyicisinin ƏDV-nin məqsədləri üçün qeydiyyata dayanmaq öhdəliyini yaradan vergi tutulan əməliyyatların həcminin artırılması hazırda qeydiyyatda olan ƏDV ödəyicisinə vergi mükəlləfiyyətini dəqiqləşdirmək hüququ verir.

Vergi Məcəlləsində dəyişikliklərlə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması Vergilər Nazirliyinə tapşırılmışdır. Bu məqsədlə nazirliyin müvafiq əmri ilə «Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında» məlumat forması və bildiriş mətni təsdiq edilmişdir. Nazirliyin aidiyyəti struktur rəhbərlərinə əmrin tələblərindən irəli gələn tədbirlərin görülməsini təmin etmək tapşırılmışdır.

## Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında BİLDİRİŞ

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanunu ilə Vergi Məcəlləsinin 155.1-ci maddəsində dəyişiklik edilərək 1 yanvar 2016-cı il tarixdən vergi ödəyicisinin ƏDV-nin məqsədləri üçün qeydiyyata dayanmaq öhdəliyini yaradan vergi tutulan əməliyyatlarının həcmi 120.000 manatdan 200.000 manatadək qaldırılmışdır.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən vergi ödəyicisinin ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olduqda sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yaranır.

1 yanvar 2016-cı il tarixdən sadələşdirilmiş vergi ödəyicisi kimi fəaliyyət göstərmək istədiyiniz təqdirdə bu Bildirişə əlavə edilmiş «Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında Məlumat Forması»nı dolduraraq 30 dekabr 2015-ci il tarixinədək qeydiyyatda olduğunuz vergi orqanına təqdim etməlisiniz.

Vergi Məcəlləsinin 159.5-ci maddəsinə əsasən vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, belə mallardan (işlərdən, xidmətlərdən) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, fövqəladə hallardan başqa malların itməsi, əskik gəlməsi, xarab olması, tam amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanması vergi tutulan əməliyyat sayılır.

Eyni zamanda Vergi Məcəlləsinin 159.6-cı maddəsinə əsasən vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun sahibliyində qalan mallar həmin vaxt və vergi tutulan əməliyyat çərçivəsində təqdim edilən mallar kimi qiymətləndirilir.

Bu məqsədlə mal qalıqları üzrə hesablanmış ƏDV-ni özündə əks etdirən yekun bəyannamə növbəti ayın 20-dək vergi orqanına təqdim edilməlidir.

Nəzərinizə çatdırılır ki, «Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında Məlumat Forması» 30 dekabr 2015-ci il tarixinədək təqdim edilmədikdə Sizin ƏDV-nin məqsədləri üçün qeydiyyatınız qüvvədə saxlanılacaqdır.

Bu zaman, Vergi Məcəlləsinin 158.2-ci maddəsinə əsasən vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği əvvəlki tam 12 təqvim ayı ərzində 100.000 manatdan çox deyilsə, bu Məcəllənin 158.1-ci maddəsində nəzərdə tutulan hallar istisna edilməklə, ƏDV-nin məqsədləri üçün son qeydiyyatın qüvvəyə mindiyi tarixdən etibarən bir il keçdikdən sonrakı istənilən vaxt qeydiyyatın ləğv olunmasına dair ərizə verə bilərsiniz.

Azərbaycan Respublikası
Vergilər Nazirliyi

tarix


Azərbaycan Respublikası vergilər nazirinin "____" 2015-ci tarixli ____________ №-li əmri ilə təsdiq edilmişdir

**Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə haqqında MƏLUMAT FORMASI**

1. Məlumatın verilməsini şərtləndirən hal

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanunu ilə Vergi Məcəlləsinin 155.1 -ci maddəsində dəyişikliklə əlaqədar ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olduğundan sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə:

1.1 Edirəm ☐ 1.2 Etmirəm ☐

2. Məlumatın təqdim edildiyi vergi orqanı

2.1 vergi orqanının adı

3. Vergi ödəyicisi haqqında məlumat

3.1 vergi ödəyicisinin adı

3.2 vergi ödəyicisinin VÖEN-i

4. Əlavə məlumatlar

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi, o cümlədən bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 200.000 manat və ondan az olduğundan aşağıdakıları bildirirəm

4.1 Ləğvetmə vaxtı sahibliyində qalan malların məbləği manatla

4.2 ƏDV-nin yekun bəyannaməsi növbəti ayın 20-dək təqdim ediləcəkdir

Qeyd:

4.3 soyadı

4.4 adı

4.5 atasının adı

4.6 20

M.Y.

4.8

# Gömrük xidmətləri sadələşdirilir

Gömrük xidmətləri sadələşdirilir «Elektron Hökumət» portalının operatoru ilə Dövlət Gömrük Komitəsinin səlahiyyətli nümayəndələrinin görüşündə gömrük bəyannamələrinin elektron təşkili məsələsi müzakirə edilmişdir. Gömrük sərhədlərindən keçirilən malın bəyan edilməsi prosesinin elektron təşkilində elektron bəyannamənin vətəndaş tərəfindən imzalanması mühüm əhəmiyyət daşıyır. Hazırda gömrük sərhədlərində bu əməliyyat ənənəvi üsulla aparılır, yəni mal sahibi formanı kağız üzərində dolduraraq imzalayır. Gömrük zamanı elektron bəyannamənin mal sahibi tərəfindən e-imza vasitəsilə təsdiqlənməsi üzrə bütün təfərrüatlar müzakirə edilmiş, bu xidmətin portal üzərindən göstərilməsi üçün tələb olunan texniki-proqram şərtləri nəzərdən keçirilmişdir.

Toplantının gündəliyindəki daha bir məsələ isə Gömrük Sertifikat Xidməti Mərkəzinin akkreditə olunması ilə əlaqədar olmuşdur. Akkreditə ilə əlaqədar tələb olunan texniki detallar, həmçinin qanunvericiliklə nəzərdə tutulan sənədlərlə bağlı ətraflı məlumat verilmişdir.

**F.İKRAMQIZI**

# İnformasiya sistemlərinin monitorinqi davam edir

İndiyə qədər 82 dövlət informasiya ehtiyatı və 169 fərdi məlumatın informasiya sistemi reyestrlərdə dövlət qeydiyyatına alınıb.

«Elektron hökumət» portalının operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrləri aparılır. MHM-dən verilən məlumata görə, hər bir informasiya sistemi qeydiyyata alınarkən texniki qaydalara uyğun müvafiq elektron prosedurlar yerinə yetirilir və qeydiyyata alınacaq informasiya bazasına baxış təşkil olunur.

Prosedurlar tamamlandıqdan sonra dövlət orqanına mülkiyyətində olan informasiya sisteminin dövlət reyestrindən keçməsi barədə çıxarış verilir. «Elektron hökumət» portalı üzərindən təqdim olunan e-xidmətlərin təşkili üçün müvafiq dövlət qurumunun mülkiyyətində olan informasiya bazalarından istifadə edilir. Bir elektron xidmətin formalaşmasında bəzən iki və daha artıq məlumat bazasından məlumatların götürülməsi lazım gəlir və buna görə də hər bir məlumat bazasının təsdiq edilmiş tələblərə uyğunluğu çox önəmlidir.

«Elektron hökumət» portalının operatoru tərəfindən dövlət qurumlarının mülkiyyətində olan informasiya sistemlərinin monitorinqləri zamanı MHM-in mütəxəssisləri tərəfindən informasiya ehtiyatlarının və sistemlərinin müvafiq texniki qaydalara uyğun təşkili yoxlanılır. Monitorinqlər başa çatdıqdan sonra nəticələr hesabat şəklində aidiyyəti qurumlara təqdim olunur, uyğunsuzluqların aradan qaldırılması üçün zəruri texniki dəstək təmin edilir.

MHM-in məlumatına görə, reyestrlərin formalaşdırılmasına 2012-ci ilin dekabr ayında başlanılıb və indiyə qədər 82 dövlət informasiya ehtiyatı və 169 fərdi məlumatın informasiya sistemi reyestrlərdə dövlət qeydiyyatına alınıb.

**AYTƏN**

## vergi təqvimi

| DEKABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | **20** |
| 21 | **22** | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | 31 | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
22 dekabr - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2»və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Avropa Birliyi hər il milyardlarla avro itirir



«Kölgə iqtisadiyyatı» ucbatından Avropa Birliyi hər il 454 milyard avro gəlirdən məhrum olur. Bu isə Birliyin ümumi vergi daxilolmalarının 8,6%-i deməkdir. İ.Keplera adına Linssk Universitetinin professoru Fridrix Şnaydelin tədqiqatlarına əsasən, bu göstərici ölkələr arasında fərqlənir. Avstriyada «kölgə iqtisadiyyatı»nın həcmi 4,5%-dirsə, Bolqarıstanda bu göstərici 18,8%-ə qədər artır. İtkilərin üçdəbiri pul vəsaitlərinin böyük bir hissəsinə nəzarət edən şirkətlərin öz hesabatlarında bəyan etdikləri gəlirlərin azaldılması, qalanı isə bəyan olunmamış əməyin payına düşür.

Bundan əvvəl isə Avropa Komissiyası hesabatında bildirmişdi ki, 2013-cü ildə Birlik ölkələrində vergilərin yığılmaması səbəbindən, yalnız ƏDV üzrə itkilərin həcmi 168 mlrd. avro təşkil edib.

İqtisadi və maliyyə məsələləri üzrə avrokomissar Pyer Moskoviçi vergilərdən yayınma halları ilə mübarizənin gücləndirilməsinə çağırıb və qeyd edib ki, bu, AB-nin qarşısında duran ən aktual problemdir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) məlumatına görə, inkişaf etməkdə olan ölkələrdə «kölgə iqtisadiyyatı»nın miqyası daha böyükdür və bir sıra hallarda iş yerlərinin yarısından çoxu məhz qeyri-leqal sektorun payına düşür. Beynəlxalq Valyuta Fondu isə buna korrupsiyanın və dövlətin həddən ziyadə tənzimləmə həyata keçirməsinin səbəb olduğunu göstərir.

İqtisadi böhran kölgə iqtisadiyyatı ilə mübarizə prosesinə əhəmiyyətli təkan verib. Son illərdə müxtəlif ölkələr qeyri-leqal əməklə mübarizə istiqamətində yüzlərlə tədbir həyata keçiriblər. Belçikada ev işləri yerinə yetirən insanları işə götürənlər üçün subsidiyaların verilməsi sxemi tətbiq edilib. Daha bir maraqlı addım satışdan verginin ödənişinə dair qəbzlər üzrə lotereyaların keçirilməsi olub. Bu populyar metoddan Portuqaliya, Braziliya, Argentina, Kolumbiya, Puerto-Riko, Tayvan və Slovakiyada istifadə edilib.

Daha çox istifadə olunan metodlardan biri də pul transaksiyalarına məhdudiyyətlərin qoyulmasıdır. Kredit kartlarının az istifadə edildiyi ölkələrdə onların istifadəsi stimullaşdırılır. Məsələn, Kolumbiya və Argentinada kredit kartları vasitəsilə alqılar üçün ƏDV dərəcəsi azaldılıb. Şimali Avropa ölkələrində nağd pul transaksiyalarının həcmi təxminən 20% azalıb.

Ekspertlər hesab edirlər ki, hökumətlər vergidən yayınmanın qarşısını tam ala bilməsələr də, «kölgə iqtisadiyyatı»nda çalışan insanları və şirkətləri fəaliyyətlərini leqallaşdırmağa məcbur etməklə bundan böyük fayda götürə bilərlər. Tədqiqatın müəllifi, professor Şnayder hesab edir ki, ağıllı siyasətin köməyi ilə qeyri-leqal iqtisadiyyatı, heç olmasa, 20-30%-dək azaltmaq mümkündür.

## Xəbər lenti

**Rusiya**nın Sənaye və Ticarət Nazirliyi ilə Koreyanın «Hyundai» şirkəti arasında danışıqlar nəticəsində 2016-cı ilin əvvəlində xüsusi investisiya sazişinin imzalanacağı gözlənilir. Saziş şirkətə vergi və gömrük güzəştləri də daxil olmaqla bir sıra əlavə imkanlar yaradacaq.

**Litva** parlamentinin qəbul etdiyi qanuna əsasən, gələn il martın 1-dən başlayaraq qarşıdakı 3 il ərzində pivə, şərab və digər fermentlənmiş içkilər üçün aksiz dərəcələri ildə 8%, etil spirtindən hazırlanan alkoqollu içkilər üçün isə 2,5% artırılacaq.

**Cənubi Afrika**nın vergi idarəsi 2015-ci il üzrə 5,94 milyon vergi bəyannaməsi qəbul edib ki, bu da keçən illə müqayisədə 11,52% çoxdur. Artıq üçüncü ildir ki, bəyannaməni vaxtında təqdim edən vergi ödəyicilərinin əməletmə səviyyəsi 90%-dən çox təşkil edir.

**Avstraliya**nın vergi orqanları ölkədə 100-dən artıq ailənin offşor «vergi cənnətləri»ndəki hesablarından bir sıra özəl məktəblərin hesablarına pul köçürülməsi barədə məlumat əldə etdikdən sonra təhqiqat aparmağa başlayıblar. Məlumatlar vergi yayındırmaqda şübhəli bilinən 60 məktəbdən götürülüb.

**Avropa Komissiyası** McDonalds restoranlar şəbəkəsinin vergidən yayınmasından şübhələnir. Bununla bağlı yoxlama aparılmağa başlanıb. Komissiyanın açıqlamasında bildirilir ki, 2009-cu ildə McDonaldsın Lüksemburq hökuməti ilə bağladığı vergi sazişləri şirkətə həm Lüksemburqda, həm də ABŞ-da vergidən yayınmağa imkan verib. Hesablamalara görə, şirkətin Lüksemburq bölməsinin gəlirləri təkcə 2013-cü ildə 250 milyon avrodan artıq olub.

**ABŞ**-da bərpa olunan enerji üçün vergi güzəştləri ətrafında ciddi mübahisələr yaranmaqdadır. Respublikaçıların Araşdırma Komitəsinin yeni müraciətində hökumətdən külək və günəş enerjisi sahəsində çalışan şirkətlərə verilən vergi güzəştlərinin dayandırılması tələb olunur.

**Qazaxıstan** Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsində horizontal monitorinqin tətbiqi müzakirə edilib. İlk dəfə 2004-cü ildə Niderlandda tətbiq olunmuş bu konsepsiyada «qaydaların daha da azaldılmasına, hüquqi normaların daha yaxşı icra olunmasına və cəmiyyət tərəfindən daha böyük məsuliyyət daşınmasına» nail olmaq əsas götürülür.

Xarici ölkələrin təcrübəsi

# Yaponiyanın vergi sistemi



### İstehlak vergisi

Bu vergi Yaponiyada təqdim olunan mal və xidmətlərdən tutulur. Son statistik məlumatlara əsasən, ölkədə istehlak vergisi ödəyicilərinin xüsusi çəkisi 4,5% təşkil edir.

***Vergi ödəyiciləri***

Şəxs maliyyə ili ərzində aşağıdakı hallarda istehlak vergisinin ödəyicisi hesab olunur:

- Şəxsin «baza müddətində» (adətən, sonuncu ildən əvvəlki maliyyə ili) istehlak vergisi məqsədləri üçün vergi tutulan satışının həcmi 10 mln. yendən (83,6 min ABŞ dolları) çox olduqda;
- Baza dövrü olmayan müəssisənin səhm kapitalı ən azı 10 mln. yen olduqda;
- Müəssisə könüllü surətdə istehlak vergisinin ödəyicisi olmaq statusunu seçdikdə.

2013-cü il yanvarın 1-dən sonra başlanan maliyyə illəri üçün şəxsin vergi ödəyicisi hesab edilməsi üçün baza dövrü ərzində vergi tutulan satışının həcmi 10 mln. yen olmadıqda belə, əvvəlki maliyyə ilində ilk 6 aylıq dövrdə 10 mln. yendən artıq olması kifayətdir. Bundan əlavə, baza dövrü olmayan müəssisə səhm kapitalı 10 mln. yendən az olsa da, vergi tutulan satışının həcmi 500 mln. yendən (4,2 mln. ABŞ dolları) artıq olan şəxs tərəfindən idarə edilirsə, vergi ödəyicisi hesab olunur. Bu qayda 1 aprel 2014-cü il tarixdən sonra yaradılmış müəssisələrə aid edilir.

İstehlak vergisi məqsədləri üçün məcburi qeydiyyatdan keçmə üzrə minimum illik dövriyyə 10 milyon yen təşkil edir (~83,7 min ABŞ dolları).




***Vergiyə cəlb olunan əməliyyatlar***

Aşağıdakı transaksiyalar vergiyə cəlb olunur:

- Yaponiyada mal və xidmətlərin təqdim edilməsi;
- Yaponiyada aktivlərin satışı və lizinqi;
- Xarici malların idxal edilməsi.

İdxaldan istehlak vergisi idxalın sahibkarlıq məqsədilə ölkəyə gətirilib-gətirilməməsindən asılı olmayaraq, istənilən halda tutulur. Odur ki, idxalçı fiziki şəxslər də bu halda vergi ödəyicisi hesab oluna bilər. Bu zaman idxalçı satış vergisi məqsədləri üçün bəyannamə təqdim etmək məcburiyyətində deyil.

Yerli vergi tutulan transaksiyalar üçün vergitutma bazası mal və xidmətə görə ödənilməli olan məbləğ hesab edilir.

İdxal əməliyyatları zamanı vergitutma bazası gömrük rüsumu məqsədləri üçün idxal olunan malın dəyəri ilə gömrük rüsumları və digər aksizlərin cəmindən ibarətdir.

İxrac əməliyyatları, həmçinin Yaponiyadan ixracı təmsil edən transferlər və lizinq də daxil

| Azadolmalar | |
|---|---|
| Vergidən azad olunan əməliyyatlar | |
| *torpaq lizinqi* | bank və sığorta xidmətləri |
| *səhiyyə xidmətləri* | mənzil və təhsil lizinqi |

olmaqla «0» dərəcə ilə istehlak vergisinə cəlb olunur. Qeyri-rezident fiziki şəxslərə və ya qeyri-rezident müəssisələrə təqdim olunan xidmətlər ixrac edilmiş hesab olunur. Bu cür əməliyyatlardan ödənilmiş istehlak vergisi əvəzləşdirilə bilər.

***Dərəcələr***

Vergi dərəcəsi 2014-cü il aprelin 1-i tarixindən 8% təşkil edir (6,3% milli istehlak vergisi + 1,7% yerli istehlak vergisi). Bu tarixədək isə həmin dərəcə 5% (4% milli istehlak vergisi + 1% yerli istehlak vergisi) olmuşdur.

### Miras vergisi

Əgər fiziki şəxs mirasla əmlak əldə edirsə və bu zaman Yaponiyada daimi yaşayış yerinə malikdirsə, əmlakın harada yerləşməsindən asılı olmayaraq, mirasla əldə olunan bütün əmlak üzrə vergi öhdəliyi daşıyır.

Fiziki şəxs həmin vaxt Yaponiyada daimi yaşayış yerinə malik olmadıqda yalnız Yaponiyada yerləşən əmlaka görə miras vergisi öhdəliyi daşıyır. Bununla belə, əgər fiziki şəxs Yaponiya vətəndaşıdırsa və ya vəfat edən şəxsin mirasdan əvvəlki 5 il ərzində hər hansı zaman ərzində Yaponiyada daimi yaşayış yeri olmuşdursa, həmin fiziki şəxs əmlakın yerindən asılı olmayaraq, bütün əmlak üzrə miras vergisi öhdəliyi daşıyır.

Yuxarıda qeyd edilənlərdən əlavə, 1 aprel 2013-cü il tarixdən fiziki şəxs Yaponiyada daimi yaşayış yerinə və Yaponiya vətəndaşlığına malik olmadıqda belə, vəfat edən şəxs mirasın ötürülməsi zamanı Yaponiyada daimi yaşayış yerinə malik olduğu halda, bütün əmlak miras vergisinə cəlb edilir.

Vergi ödəyicisi mirası aldığı tarixdən 10 ay ərzində miras vergisi bəyannaməsini təqdim etməli və miras vergisini ödəməlidir.

Vergidən azad olunan aktivlərə aşağıdakılar aid edilir:

- İctimai maraq məqsədləri naminə istifadə olunacaq əmlak;
- Müəyyən hədlərədək vəfat etmiş şəxsə görə həyat sığortasından gəlir;
- Vəfat etmiş şəxsə görə vəfatından sonra 3 il ərzində alınan pensiya müavinəti.

Vəfat etmiş şəxsə görə alınmış sığorta məbləğinin cəmi qanuni varislərin sayının 5 milyon yenə hasilindən artıq olmadıqda, hər bir varis üçün sığorta məbləğləri vergitutma bazasından çıxılır. Pensiya müavinətinin vergitutma bazasından çıxılan vergidən azad olunan məbləği də eyni qaydada (hər bir qanuni varisə görə 5 milyon yen) hesablanır.

*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

## krossvord




**Yuxarıdan aşağı:** 1.Buddizmdə Budda Şakyamuninin əsas şagirdlərindən biri; 2.Korroziyaya davamlı titan və nikel birləşməsi nəticəsində əmələ gələn ərinti; 3.Lerik rayonunda kənd; 4.Gürcü kişi adı; 5.Bitki növü; 6.Mərkəzi Çində Sunşan dağında yerləşən məbəd; 9.Belarus Respublikasında şəhər; 13.Qvineya ərazisində yaşayan xalq; 15.Xəz dərili heyvan növü; 16.Azərbaycan ərazisində mövcud olmuş Manna dövlətinin dördüncü hökmdarı; 17.Yeni doğulmuş ay. Türkiyə və Azərbaycanın dövlət bayrağında bu simvoldan istifadə olunur; 18.Yer kürəsi və digər nəhəng səma cismlərinin səthi üzərində yaranan relyef forması; 20.İtaliyada şəhər və eyniadlı futbol klubu; 21.Cənubi Koreyada şəhər. **Soldan sağa:** 1.Bir dövlətə məxsus məskunlaşmamış ərazinin digər dövlətə qeyri-qanuni yolla (zorla, qəsb etməklə) birləşdirilməsi; 5.Polşada şəhər; 7.Müəllifin özü tərəfindən yazılmış əlyazması, məşhurların müxtəlif əşyalar üzərindəki imzası; 8.Azərbaycan ədəbiyyatında yaranmış epopeya; 10. Avropada Volqadan sonra ikinci ən uzun çay; 11. Azərbaycanın milli mətbəxinə aid xörək; 12. Elastik boru; 14.Qədim Roma imperatoru; 19.Yer kürəsinin ən hündür sıra dağları; 21.Xanəndə, muğam ifaçısı, Qarabağ xanəndəlik məktəbinin tanınmış nümayəndələrindən biri, Azərbaycan Respublikasının xalq artistinin adı; 22.İspaniyanın şimal-qərbində çay; 23.Faydalı qazıntı (mineral); 24.Adriatik dənizi ilə Aralıq dənizi arasında yerləşən dəniz; 25.Dinozavrların bir növü.


Yer kürəsinin ən hündür sıra dağları

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Edison (Tomas Alva); 2.Latviya; 3.Kaqul; 4.İmamlı; 5.Dinqo; 6.Biruni; 9.Uqah; 13.Aval; 15.Aneroid; 16.Çingiz (Aytmatov); 17.Maseyo; 18.Bofort (şkalası); 20.Donor; 21.Myera.**Soldan sağa:**1.Eklektizm; 5.Dib; 7.İstiqraz; 8. Enqr (Jan Oqüst Dominik); 10.Odiel; 11.Liqroin; 12.Qaval; 14.Ehram; 19.İndiana; 21.Maevo; 22.Gent; 23.Kemerovo; 24.Zar; 25.Miokardit.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14000

idman

# Güləşçilərin beynəlxalq reytinq siyahısı:

## Rəsul Çunayev birinci...



Dünya Güləş Birliyi yunan-Roma güləşi üzrə yeni beynəlxalq reytinq siyahısını açıqlayıb. Azərbaycanın 12 idmançısının adının daxil edildiyi siyahıya 71 kq çəki dərəcəsində çıxış edən dünya çempionumuz Rəsul Çunayev başçılıq edir. Rövşən Bayramov (59 kq) və Saman Təhmasibi (85 kq) 2-ci sırada qərarlaşıblar. Sabah Şəriəti (130 kq) reytinq siyahısında mövqeyini 1 pillə yaxşılaşdıraraq 4-cü olub. Bundan başqa, ilk onluqda daha dörd güləşçimiz yer alıb: Elvin Mürsəliyev (75 kq) və Rafiq Hüseynov 6-cı, Həsən Əliyev (66 kq) 9-cu, İslam Abbasov (85 kq) isə 10-cu sıradadır.

## Mariya Stadnik ikincidir

Dünya Güləş Birliyi qadın güləşi üzrə yeni beynəlxalq reytinq siyahısında isə 9 təmsilçimizin adı var. Son dünya çempionatının gümüş medalçısı Mariya Stadnik (48 kq) sıralamada ikinciliyini qoruyub. Nataliya Sinişin (55 kq) 4 pillə irəliləyərək reytinqdə 7-ci sırada qərarlaşıb, 60 kiloqram çəki dərəcəsində İrina Netreba bir pillə irəliləyərək 4-cü olub. Anjela Doroqan (53 kq, 6-cı yer) və Nadya Muşkanın (63 kq, 14-cü yer) mövqeyi dəyişməz qalıb. Dünya çempionatının bürünc medalçısı Yuliya Ratkeviç (58 kq) 2 pillə geriləyərək 6-cı yerdə qərarlaşıb.



# Dünya çempionatının final mərhələsinin bir addımlığında...

Xorvatiyada təşkil olunan futzal üzrə dünya çempionatının seçmə mərhələsində Azərbaycan milli komandası qrupda sonuncu oyununu keçirib. Yerli komanda ilə qarşılaşmadan 4:4 hesablı heçheçə ilə ayrılan millimizin heyətində Vitali Borisov dubl edib. Hərəyə 1 dəfə isə Amadeu Fernandes da Silva və Sergey Çuykov fərqlənib. Qeyd edək ki, buna qədər millimiz seçmə mərhələdə İsveç yığmasını 8:2, Belarus futzalçılarını isə 7:2 hesabı ilə məğlub etmişdi. Beləliklə, keçirdiyi üç görüşün nəticəsinə görə, 7 xalla qrup lideri olan Azərbaycan ilə ayrılan millisi dünya çempionatının növbəti mərhələsinə vəsiqə qazanıb. Qrupda ikinci pillədə olan Belarus millisi də pley-offa vəsiqəni təmin edib.

# Millimiz Dünya kubokuna sahib oldu



Meksikanın paytaxtı Mexikoda milli komandalar arasında taekvondo üzrə Dünya kuboku yarışlarında Azərbaycan yığması Dünya Taekvondo Federasiyası (DTF) tərəfindən təşkil edilən yarışda kuboka sahib olub. Yığma komandamızın üzvləri - Məhəmməd Məmmədov, Ayxan Tağızadə, Sina Bahrami, Səid Quliyev, Milad Beigi Hərçəqani və Radik İsaev ilk görüşü Belçika yığma komandasına qarşı keçiriblər. Qarşılaşmada milli komandamız 57:31 hesabı ilə qalib gəlib. Növbəti döyüşdə də millimiz Özbəkistan komandasına şans verməyib - 31:11. Yarımfinala adlayan yığmamız Koreya Respublikasının milli komandası ilə görüşdə 48:30 hesablı qələbə qazanaraq finala yüksəlib. Final döyüşündə güclü İran millisi ilə qarşılaşan komandamız rəqib üzərində inamlı qələbə qazanaraq (42:23) Dünya kubokuna sahib çıxıb. Koreya Respublikası və Rusiya yığmaları isə bürünc medallara layiq görülüblər.

# Çempionlar Liqası və Avroliqanın püşkü atıldı

Dekabrın 14-də UEFA Çempionlar Liqasında səkkizdəbir final mərhələsinin püşkatma mərasimi keçirilib. UEFA-nın Nyon şəhərindəki mənzil-qərargahında keçirilən tədbirdə qrup mərhələsindən yüksələn 16 komanda 8 cütlük təşkil edib. Püşkatma nəticəsində aşağıdakı komandalar üz-üzə gələcəklər:

«Gent» (Belçika) - «Volfsburq» (Almaniya); «Roma» (İtaliya) - «Real» (İspaniya); PSJ (Fransa) - «Çelsi» (İngiltərə); «Arsenal» (İngiltərə) - «Barselona» (İspaniya); «Yuventus» (İtaliya) - «Bavariya» (Almaniya); PSV (Hollandiya) - «Atletiko» (İspaniya); «Benfika» (Portuqaliya) - «Zenit» (Rusiya); «Dinamo» (Ukrayna) - «Mançester Siti» (İngiltərə).

Ümumilikdə 10 ölkə təmsilçisinin iştirak edəcəyi səkkizdəbir final mərhələsinin ilk qarşılaşmaları 16-17 və 23-24 fevralda təşkil olunacaq. Cavab görüşləri isə 8-9 və 15-16 martda keçiriləcək.

Həmin gün UEFA Avropa Liqasının onaltıdabir final mərhələsinin də püşkü atılıb. Püşkatmada qitənin ikinci dərəcəli klub turnirinin qrup mərhələsinin 24 qalibi və Çempionlar Liqasının 3-cü yerinin sahibləri iştirak ediblər. Püşkatma nəticəsində aşağıdakı komandalar bir-birinə rəqib olublar:

«Valensiya» (İspaniya) - «Rapid» (Avstriya); «Fiorentina» (İtaliya) - «Tottenhem» (İngiltərə); «Borussiya» (Almaniya) - «Porto» (Portuqaliya); «Fənərbağça» (Türkiyə) - «Lokomotiv» (Rusiya); «Anderlext» (Belçika) - «Olimpiakos» (Yunanıstan); «Midtyulland» (Danimarka) - «Mançester Yunayted» (İngiltərə); «Auqsburq» (Almaniya) - «Liverpul» (İngiltərə); «Sparta» (Çexiya) - «Krasnodar» (Rusiya); «Qalatasaray» (Türkiyə) - «Latsio» (İtaliya); «Syon» (İsveçrə) - «Braqa» (Portuqaliya); «Şaxtyor» (Ukrayna) - «Şalke» (Almaniya); «Marsel» (Fransa) - «Atletik» (İspaniya); «Sevilya» (İspaniya) - «Molde» (Norveç); «Sportinq» (Portuqaliya) - «Bayer» (Almaniya); «Vilyarreal» (İspaniya) - «Napoli» (İtaliya); «Sent-Etyenn» (Fransa) - «Bazel» (İsveçrə).

Qeyd edək ki, Avropa Liqasında onaltıdabir finalın ilk oyunları fevralın 18-də, cavab matçları isə bir həftə sonra keçiriləcək.

mozaika

## Növbəti monitorinq

camiyyat



Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti (DBNX) quş qripinin Azərbaycana köçəri quşlar vasitəsilə keçmə ehtimalını nəzərə alaraq, ardıcıl monitorinqləri davam etdirir.

DBNX-nin mətbuat katibi Yolçu Həsənov bildirib ki, köçəri quşların payız miqrasiyası ilə əlaqədar dekabrın 7-dən növbəti monitorinq başlayıb. Monitorinq DBNX-nin, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin mütəxəssis və əməkdaşlarının iştirakı ilə aparılır. Nəzarət tədbirinin köçəri quşların müvəqqəti məskunlaşdığı Abşeron yarımadası, Şabran, Salyan, Ağcabədi və Lənkəran rayonlarındakı milli qoruq və parklarda, həmçinin ölkənin dəniz sahili zonalarında və digər ərazilərində keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, monitorinq aparılan müddətdə quşçuluq və şəxsi təsərrüfatlardan da nümunələrin götürülməsi planlaşdırılır.

Ölkə ərazisində köçəri və ev quşlarına görə aparılan monitorinq zamanı götürülən qan və patoloji materiallar Respublika Baytarlıq Laboratoriyasında müayinə olunacaq və nəticələri dekabrın 18-də ictimaiyyətə açıqlanacaq.

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti əhalinin və quşçuluq təsərrüfatı rəhbərlərinin nəzərinə çatdırır ki, köçəri quşların miqrasiyası ilə əlaqədar ev və sənaye quşları qapalı şəraitə keçirilməli, özbaşına müalicə, peyvəndləmə və digər tədbirlər aparılmamalı, eləcə də heyvanlar baytarlıq-sanitariya tələblərinə cavab verən şəraitdə saxlanılmalıdır.

Hazırda quş qripi xəstəliyinə görə respublikamızda epizootik vəziyyət sabitdir. Bu sabitliyi qoruyub saxlamaq üçün DBNX aidiyyəti qurumlarla birgə lazımi tədbirləri davam etdirir.

## Virtual reallıq eynəyi

texnologiya



Bu cihaz hələ istehlak bazarına daxil olmasa da, analitiklər hesab edirlər ki, yeni texnologiya istifadəçilər tərəfindən məmnuniyyətlə qəbul ediləcək. «SuperData» tədqiqat firmasının qiymətləndirməsinə görə, iki il sonra 70 milyondan çox insan virtual reallıq texnologiyasına əsaslanan oyunlardan zövq alacaq.

Analitiklərin proqnozuna əsasən, insanlar hər hansı bahalı və funksional platformanı satın almazdan öncə bu texnologiyanı sınaqdan keçirmək istəyəcək və buna görə əvvəlcə ucuz qurğulara üstünlük veriləcək. Məhz bundan sonra dəyəri yüksək olan qurğular bazarında «bum» gözlənilir. Təxmin edilir ki, ABŞ-da satışların 33 faizi «PlayStation» üçün «VR» eynəklərinin payına düşəcək.

Beləliklə, aparat təminatı bazarının həcmi 8,8 milyard dollar təşkil edəcək və virtual reallıq cihazları üçün 6,1 milyard dollar məbləğində müxtəlif proqram təminatı satılacaq. 2019-cu ilin sonuna kimi bu göstəricilər təxminən 2 dəfə artacaq.

## "Apple" "Samsung"a qalib gəldi

qalmaqal

Bu iki nəhəng korporasiya arasında 2011-ci ildən davam edən mübahisəyə axır ki, son qoyulub. Məhkəmə qərarına əsasən, «Samsung» «Apple» korporasiyasına 548 milyon dollar cərimə ödəyəcək.

Qeyd edək ki, 2011-ci ildə «Apple» «Samsung»un onun bəzi patentləşdirilmiş texnologiyalarından icazəsiz istifadə etməsi barədə iddia irəli sürmüşdü.

## Evdə lazım olar

faydalı

***Təzə ayaqqabı ayağa uyğunlaşana qədər hər kəsin başına bir sıra narahatlıqlar gəlir. Həmin narahatlıqlardan bəzilərini aradan qaldırmaq üçün bu məsləhətlərə əməl etməyin faydalı olacağını zənn edirik:***

- Təzə ayaqqabı ayağınızı sıxırsa, üstünə pəncərə silmək üçün nəzərdə tutulan spirt məhlulu səpmək məsləhətdir. Məhlulla isladılmış ayaqqabını nəmli halda geyinib bir saat gəzmək lazımdır.
- Ayaqqabı ayağınızı döyürsə, döyən hissəni pəncərə silmək üçün nəzərdə tutulan məhlulla nəmləndirib geyinin.
- Ayaqqabının sərt daban hissəsi dabanı döyəndə həmin hissəni əllə ovuşdurub yumşaltmaq və ya çəkiclə yüngülcə döyəcləmək olar.
- Ayaqqabının altlığı nəm keçirirsə, altına ayaqqabı kremi və ya qaynar əlif sürtmək məsləhət görülür.
- Ayaqqabı cırıldayanda ona krem və ya yağ sürtmək arzuolunmaz səsi aradan qaldırır.

## "Ağıllı" masa

maraqlı



«IKEA» şirkətinin «ağıllı» masa konsepsiyası inqrediyentləri «tanıyaraq» reseptləri stolun səthinə proyeksiya edə bilir.

Qeyd edək ki, «ağıllı» masa konsepsiyası İsveçin «IKEA» şirkətinin mühəndisi tərəfindən patentləşdirilib. O, üzərinə qoyulmuş məhsulların şəklini çəkir, daha sonra onları «tanıyaraq» internetdə müvafiq kulinariya reseptləri axtarır. Məsləhətlər birbaşa masanın səthinə proyeksiya edilir.

İdeyanın müəllifləri ümid edirlər ki, belə masalar kütləvi istehsal edildikdə qiyməti də münasib olacaq. «Freedonia Group» tədqiqat firmasının proqnozuna əsasən, bu ilin sonunadək qidanın hazırlanması üçün texnologiyalar bazarının həcmi 5,5 faiz artaraq 62 milyard dollara yaxınlaşacaq.




ELAN

**«Vergilər» qəzetinə 2016-cı il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **28 manat 60 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


**Müdriklər deyib ki...**



*«Həyatın mənasını yorulmadan işləməkdə və çətinliklərlə döyüşməkdə görürəm».*

*Aleksandr Bek (1903-1972)*